# "HERMES FİNANCE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI | 1 |
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 2-3 |
| 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatları üzrə qeydlər | 9-39 |

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANATI**
**31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Bu bəyannamə "Hermes Finance" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı;
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 8 iyun 2022-ci il tarixində cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

**Rəhbərliyin adından:**

Vüqar Məmmədov
Direktor

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Rəvan Cəfərov
Direktor müavini

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
www.bakertilly.az

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Hermes Finance" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarları və İdarəetmə Heyətinə:

### *Şərti Müsbət Rəy*

Biz "Hermes Finance" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2021-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsaslar paraqrafında təsvir edilən məsələnin potensial təsiri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### *Şərti Müsbət Rəy üçün Əsaslar*

Törəmə müəssisə maliyyə hesabatlarını MHBS-yə uyğun olaraq tərtib etmədiyinə görə, Cəmiyyət törəmə müəssisəsi "Caspian Auto Import" MMC-nin 2021-ci il ərzində əldə etdiyi maliyyə hesabatlarını konsolidə etməmişdir. Bunun əvəzinə, bu investisiya törəmə müəssisədə qeyri-kafi investisiya kimi tanınır və maliyyə vəziyyəti haqqında hesabatda ilkin dəyər metodundan istifadə etməklə uçota alınır və törəmə müəssisədən alınan müvafiq dividendlər mənfəət və zərər hesablarında qeyd olunur. Cəmiyyət 10 saylı MHBS-yə uyğun olaraq təqdim edilməmiş konsolidasiya edilmiş maliyyə hesabatlarından azad edilmədiyinə görə, Cəmiyyətin maliyyə hesabatı konsolidə edilməli idi. Mühasibat uçotu siyasətinə uyğunsuzluğun təsiri bu hesabat tarixinə müəyyən edilə bilməz.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyət***

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətiin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

# "HERMES FİNANCE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNƏ
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 4,070 | 30,889 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 7 | 7,360,975 | 4,251,050 |
| Törəmə müəssisəyə investisiya | 8 | 150 | - |
| Maliyyə icarələri üzrə xalis investisiya | 9 | 18,285,945 | 11,920,022 |
| Əmlak, tikili və avadanlıqlar | 10 | 137,763 | 52,916 |
| İstifadə hüququ olan aktivlər | 11 | 82,417 | - |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 12 | 89,186 | 45,705 |
| **CƏMİ AKTİVLƏR** | | **25,960,506** | **16,300,582** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Borc alınmış vəsaitlər | 14, 22 | 22,354,751 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 15 | 2,245,726 | 1,400,583 |
| İcarə öhdəliyi | 16 | 98,134 | - |
| Ödəniləcək vergilər | | 16,471 | 140,275 |
| Digər öhdəliklər | 17 | 38,361 | 25,108 |
| **Cəmi öhdəliklər** | | **24,753,443** | **15,883,564** |
| **KAPİTAL:** | | | |
| Səhmdar kapitalı | 13 | 615,000 | 520,200 |
| Bölüşdürülməmiş mənfəət/(yığılmış zərər) | | 592,063 | (103,182) |
| **Cəmi kapital** | | **1,207,063** | **417,018** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **25,960,506** | **16,300,582** |

**Rəhbərliyin adından:**

Vüqar Məmmədov
Direktor

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Rəvan Cəfərov
Direktor müavini

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-39-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## "HERMES FİNANCE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| İcarə əməliyyatları üzrə faiz gəliri | | 3,695,544 | 3,526,902 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər üzrə faiz gəliri | | 4,363 | 1,050 |
| **Effektiv faiz dərəcəsi metodundan istifadə etməklə hesablanmış faiz gəliri** | | **3,699,907** | **3,527,952** |
| Borc alınmış vəsaitlər üzrə faiz xərci | | (1,904,816) | (1,527,884) |
| Buraxılmış borc qiymətli kağızları üzrə faiz xərci | | (231,109) | (77,000) |
| İcarə öhdəliyi üzrə faiz xərci | | (5,356) | - |
| **Effektiv faiz dərəcəsi metodundan istifadə etməklə hesablanmış faiz xərci** | | **(2,141,281)** | **(1,604,884)** |
| **Ehtimal olunan kredit (zərərləri)/zərəri bərpasından əvvəl xalis faiz gəliri** | | **1,558,626** | **1,923,068** |
| Ehtimal olunan kredit zərərlərinin (tutulması)/bərpası | | (104,071) | 157,279 |
| **Xalis faiz gəliri** | | **1,454,555** | **2,080,347** |
| İşçi heyəti ilə bağlı xərclər | 18, 22 | (258,997) | (209,509) |
| Ümumi və inzibati xərclər | 19 | (226,328) | (121,963) |
| Dividend gəliri | 8 | 135,000 | - |
| Haqq və komissiya xərci | | (5,510) | (6,515) |
| Xarici valyuta zərəri, xalis | | (1,261) | (2,390) |
| İcarə güzəşti | | 4,700 | - |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **1,102,159** | **1,739,970** |
| Mənfəət vergisi xərci | 12 | (219,664) | (353,755) |
| **İl üzrə xalis mənfəət** | | **882,495** | **1,386,215** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **882,495** | **1,386,215** |

**Rəhbərliyin adından:**

Vüqar Məmmədov
Direktor

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Rəvan Cəfərov
Direktor müavini

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-39-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## “HERMES FİNANCE” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan Manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2020-ci il** | **510,000** | **520,603** | **1,030,603** |
| İl üzrə cəmi məcmu gəlir | - | 1,386,215 | 1,386,215 |
| Adi səhmlərin buraxılması | 10,200 | - | 10,200 |
| Elan edilmiş dividendlər | - | (2,010,000) | (2,010,000) |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **520,200** | **(103,182)** | **417,018** |
| İl üzrə cəmi məcmu gəlir | - | 882,495 | 882,495 |
| Adi səhmlərin buraxılması | 94,800 | - | 94,800 |
| Elan edilmiş dividendlər | - | (187,250) | (187,250) |
| **31 dekabr 2021-ci il** | **615,000** | **592,063** | **1,207,063** |

**Rəhbərliyin adından:**

Vüqar Məmmədov
Direktor

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Rəvan Cəfərov
Direktor müavini

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-39-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

# "HERMES FİNANCE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 1,102,159 | 1,739,970 |
| Nağdsız vəsaitlər üzrə düzəlişlər: | | | |
| Dividend gəliri | 8 | (135,000) | - |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | 10 | 50,798 | 11,846 |
| İstifadə hüququ olan aktivlər üzrə köhnəlmə | 11 | 38,461 | - |
| İstifadə olunmamış məzuniyyət | | 17,266 | - |
| İcarə öhdəliyi üzrə faiz xərci | 16 | 5,356 | - |
| Xarici valyuta zərəri, xalis | | 1,261 | 2,390 |
| Faiz hesablaşmalarında dəyişiklik, xalis | | (141,350) | (87,686) |
| İcarə güzəşti | 16 | (4,700) | - |
| Əmlak, tikili və avadanlıqların silinməsi üzrə zərər | | 641 | - |
| Ehtimal olunan kredit zərərlərinin tutulması/(bərpası) | | 104,071 | (157,279) |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **1,038,963** | **1,509,241** |
| Əməliyyat aktivləri və öhdəliklərində dəyişiklik: | | | |
| İcarələrdə xalis investisiya üzrə dəyişiklik | | (6,329,531) | 6,083,859 |
| Digər öhdəliklərdə dəyişiklik | | (4,013) | (157,301) |
| **Vergitutmadan əvvəl əməliyyat fəaliyyəti üzrə nağd pul vəsaitlərinin (yönəlməsi)/daxilolması** | | **(6,333,544)** | **5,926,558** |
| Ödənilmiş mənfəət vergisi | | (386,949) | (351,053) |
| **Əməliyyat fəaliyyəti üzrə xalis pul vəsaitlərinin (yönəlməsi)/daxil olması** | | **(5,681,530)** | **7,084,746** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Alınmış dividendlər | | 135,000 | - |
| Əmlak, tikili və avadanlıqların satışından əldə edilən gəlirlər | | 40,000 | - |
| Törəmə müəssisəyə investisiya | | (150) | - |
| Əmak, tikili və avadanlıqların satınalınması | | (176,286) | (629) |
| Kredit təşkilatlarından alınacaq vəsaitlərdə xalis yerləşdirmə | | (3,110,826) | (4,250,000) |
| **İnvestisiya fəaliyyəti üzrə xalis pul vəsaitlərinin yönəlməsi** | | **(3,112,262)** | **(4,250,629)** |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | | |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 14 | 33,310,335 | 26,826,298 |
| Borc alınmış vəsaitlərin ödənilməsi | 14 | (25,268,317) | (29,156,627) |
| Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar | 15 | 842,066 | 1,400,000 |
| Adi səhmlərin buraxılması üzrə daxilolmalar | 13 | 94,800 | 10,200 |
| İcarə öhdəliyinin əsas hissəsinin ödənilməsi | 16 | (18,044) | - |
| İcarə öhdəliyinin faiz xərclərinin ödənilməsi | | (5,356) | - |
| Adi səhmlər üzrə ödənilmiş dividendlər | 13 | (187,250) | (2,010,000) |
| **Maliyyə fəaliyyəti üzrə xalis pul vəsaitlərinin daxil olması/(yönəlməsi)** | | **8,768,234** | **(2,930,129)** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)

*(Əksi qeyd edilmədiyi halda, Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Valyuta məzənnələrinin dəyişməsinin xarici valyutada saxlanılan pul vəsaitlərinin qalıqlarına təsiri | | (1,261) | (2,390) |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis azalma | | (25,558) | (96,012) |
| İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 6 | 30,889 | 129,291 |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **4,070** | **30,889** |

31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində Cəmiyyət tərəfindən ödənilmiş və alınmış faizlər, müvafiq olaraq, 3,560,345 AZN və 2,143,069 AZN təşkil etmişdir (31 dekabr 2020-ci il: 3,488,602 AZN və 1,653,220 AZN).

Rəhbərliyin adından:

Vüqar Məmmədov
Direktor

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

Rəvan Cəfərov
Direktor müavini

8 iyun 2022-ci il
Bakı, Azərbaycan Respublikası

9-39-cu səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. CƏMİYYƏT HAQQINDA MƏLUMAT

Cəmiyyət 14 may 2018-ci il tarixində qeydiyyatdan keçmişdir (VÖEN: 1504045781).

Cəmiyyətin təsisçisi Cəfərov Rəvan Əsəd oğlu olmuşdur (şəxsiyyət vəsiqəsi AZE № 13423958, 9 iyul 2013-cü il tarixində 1 saylı ASAN tərəfindən verilmişdir).

31 dekabr 2021 və 2020-ci il tarixlərinə Cəmiyyətin mülkiyyəti aşağıdakı kimi olmuşdur:

| Səhmdarlar | 31 dekabr 2021-ci il, % | 31 dekabr 2020-ci il, % |
|---|---|---|
| Sadiq Səbinə Namiq qızı | 50.00 | 50.00 |
| Cəfərov Rəvan Əsəd oğlu | 41.46 | 49.00 |
| Mihrəliyeva-Rzayeva Nuranə Ramiz qızı | 8.54 | 1.00 |
| **Cəmi** | **100.00** | **100.00** |

***Cəmiyyətin əsas fəaliyyəti.*** Cəmiyyətin hüquqi ünvanı: AZ1110, Bakı şəhəri, Yasamal rayonu, 577-ci məhəllə, Əbdülrəhim Haqverdiyev küçəsi, 5B. Nizamnaməyə əsasən, Cəmiyyət yalnız müvafiq icazə (lisenziya) aldıqdan sonra Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan bütün növ fəaliyyət növləri, o cümlədən xüsusi icazə tələb olunan fəaliyyət növləri ilə məşğul ola bilər.

Cəmiyyət müxtəlif lizinq fəaliyyət növləri ilə məşğul olur: daşınmaz əmlakın uzunmüddətli icarəsi, avtomobil lizinqi və s.

**Cəmiyyətin Əməliyyat Mühiti**

Cəmiyyət fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir.

2020-ci ildə koronavirus pandemiyasının yayılması qlobal iqtisadiyyata mənfi təsir göstərmişdir. Bir çox ölkələrdə səyahətlərə və fərdi şəxslərin hərəkətlərinə məhdudiyyətlər qoyulmuş, ikinci dərəcəli iş yerlərinin bağlanması üzrə əhəmiyyətli məhdudiyyətlər tətbiq edilmiş və ya pandemiya nəticəsində bir sıra iş yerləri bağlanmışdır. Bu, Azərbaycan Respublikası ilə ticarət əlaqələri olan, iqtisadi cəhətdən güclü ölkələrin çoxunda ÜDM-də əhəmiyyətli dərəcədə azalmaya səbəb olmuşdur. 2020-ci ilin iyun ayından başlayaraq, Azərbaycan Respublikası da daxil olmaqla, bir çox ölkələrdə pandemiya əlamətlərində yaxşılaşma müşahidə olunmuş və sonradan müəyyən məhdudiyyətlər ləğv edilmişdir.

Nəticədə, qlobal maliyyə və əmtəə bazarlarında bərpa müşahidə olunmuşdur. Lakin sonradan Azərbaycan Respublikasında qeydə alınmış yoluxma sayı xeyli artmış və hökumət tərəfindən 2020-ci il dekabr ayının ortalarından etibarən yeni məhdudiyyətlər tətbiq edilmişdir.

Ölkədə COVİD-19 ilə mübarizə üçün aparılan məhdudlaşdırıcı tədbirlər iqtisadi aktivliyin və məcmu xərc səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. Məhdudlaşdırıcı tədbirlər iqtisadiyyatın otel, nəqliyyat, səyahət, əyləncə və sair digər seqmentlərinə, eləcə də beynəlxalq ticarətə öz təsirini göstərmişdir.

16 yanvar 2021-ci ildən etibarən Azərbaycan əhalisinin peyvəndlənməsinə başlanılması ilə əlaqədar Azərbaycan Respublikası hökuməti COVİD-19 pandemiyası ilə mübarizə məqsədilə əvvəlki ildə tətbiq edilmiş səyahət məhdudiyyəti, biznes və digər sahələrin bağlanması və ölkə daxilində müəyyən ərazilərin bağlanması kimi xüsusi karantin rejimi tədbirlərinin mərhələli şəkildə aradan qaldırılması barəsində qərar qəbul etmişdir.

Cəmiyyət fəaliyyətini əsasən Azərbaycan Respublikasında həyata keçirir. Azərbaycan Respublikası Hökuməti iqtisadi islahatları və ölkənin hüquqi, vergi və qanunvericilik çərçivəsində inkişafını davam etdirir. Azərbaycan iqtisadiyyatının gələcək davamlı inkişafı, əsasən, bu islahatlardan və sektordakı tərəqqidən, eləcə də hökumət tərəfindən iqtisadi, maliyyə və pul siyasəti üzrə həyata keçirilmiş tədbirlərdən və Azərbaycan manatı ilə xam neftin sabit qiymətlərindən asılıdır. Azərbaycan Respublikasının iqtisadiyyatı, xüsusilə, neft və qaz qiymətlərinə həssas olmasına baxmayaraq, son illərdə Azərbaycan Respublikası Hökuməti daha balanslı iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün böyük iqtisadi və sosial islahatlara başlamışdır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına əsasən, Azərbaycanda ÜDM 2021-ci ildə 54.62 milyard ABŞ dolları səviyyəsində olmuşdur. Uzunmüddətli perspektivdə, ekonometrik modellərimizə görə, 2022-ci ildə Azərbaycan ÜDM-nin 54.73 milyard ABŞ dolları və 2023-cü ildə 55.98 milyard ABŞ dolları səviyyəsində olacağı proqnozlaşdırılır.

Hökumət Azərbaycan manatının sabitliyi ilə əlaqədar olaraq pul siyasətini davam etdirmiş və Azərbaycan manatını sabitləşdirən xarici valyuta ehtiyatlarını ayırmışdır. Bu siyasət 2021-ci ildə makroiqtisadi sabitliyin qorunması məqsədi ilə davam etdirilmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı il ərzində yenidən maliyyələşdirmə dərəcəsini bir neçə dəfə dəyişdirmiş və bu dərəcə sabit artmaqla 6.25%-7.25% arasında dəyişmişdir.

Cəmiyyətin rəhbərliyi, makroiqtisadi mühitdəki dəyişiklikləri izləyir və yaxın gələcəkdə Cəmiyyətin fəaliyyətinin dayanıqlığını və inkişafını dəstəkləmək üçün zəruri hesab etdiyi tədbirləri görür.

Beynəlxalq kredit reytinq agentlikləri, mütəmadi olaraq, Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service" ölkə üçün "Ba2" kredit reytinqini təyin etmişdir.

Azərbaycan Respublikasının gələcək iqtisadi inkişafı, əsasən, hökumətin vergi, hüquq, tənzimləyici və siyasi islahatlarla birlikdə həyata keçirdiyi iqtisadi, maliyyə və pul tədbirlərinin səmərəliliyindən asılıdır. Rəhbərlik Cəmiyyətin fəaliyyətinə təsir göstərəcək iqtisadi mühitdəki bütün islahatları və nəticədə onların maliyyə vəziyyətinə necə təsir göstərə biləcəyini proqnozlaşdırmaq iqtidarında deyil. Rəhbərlik hazırda müxtəlif neft qiymətləri üzrə həssaslıq təhlili həyata keçirir və biznesin davamlılığını təmin etmək üçün müvafiq tədbirlər planı hazırlayır.

## 2. MALİYYƏ HESABATLARININ TƏRTİB EDİLMƏSİNİN ƏSASLARI

### Uyğunluq Bəyanatı

Cəmiyyətin 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq Cəmiyyəti ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyini düşünür. Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Cəmiyyətin aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair Rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

**Xarici valyuta əməliyyatları**

Xarici valyutalarda əməliyyatlar onların həyata keçirildiyi tarixlərdə qüvvədə olan məzənnələrlə Cəmiyyətin əməliyyat valyutasına çevrilir.

Hesabat tarixinə xarici valyutalarda əks olunmuş maliyyə aktivləri və öhdəlikləri həmin tarixdə olan məzənnə ilə yenidən əməliyyat valyutasına çevrilir. Maliyyə maddələri üzrə xarici valyuta gəliri və ya zərəri, dövr ərzində effektiv faiz və ödənişlər nəzərə alınmaqla, dövrün əvvəlində əməliyyat valyutasının amortizasiya edilmiş dəyərlə hesabat dövrünün sonunda məzənnəyə uyğun çevrilmiş xarici valyutada amortizasiya edilmiş dəyər arasında olan fərqdir.

Cəmiyyət bu maliyyə hesabatlarının hazırlanmasında 31 dekabr 2021 və 2020-ci il tarixlərində aşağıdakı rəsmi məzənnələrdən istifadə etmişdir:

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| ABŞ dolları/AZN | 1.7000 | 1.7000 |
| Avro/AZN | 1.9265 | 2.0890 |

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri, son ödəmə tarixi 90 gündən az və ya ona bərabər, eləcə də müqavilə üzrə istifadəsinə məhdudiyyət olmayan nağd şəkildə olan pul vəsaitlərindən və banklarda yerləşən cari hesablardan ibarətdir.

**Kredit təşkilatlarından alınacaq vəsaitlər**

Kredit təşkilatlarından alınacaq vəsaitlər Cəmiyyət qarşı tərəf banklara pul verdikdə uçota alınır. Kredit təşkilatlarından alınacaq vəsaitlər aşağıdakı hallarda AD-də uçota alınır:

i) müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-ni təmsil edir və (ii) onlar MZVƏD-də təyin edilmir.

## Maliyyə icarələri üzrə xalis investisiya

Əgər Cəmiyyət icarə müqaviləsinin şərtləri əsasında icarəçi olaraq fəaliyyət göstərirsə, sahibkarlıqla əlaqəli bütün risk və imkanları icarəçiyə ötürürsə, icarəyə verilən aktivlər maliyyə icarəsinə investisiya olaraq təqdim olunur və gələcək icarə ödənişlərinin hazırkı dəyəri ilə uçota alınır. Maliyyə icarəsinə qoyulan investisiyalar başlanğıcda (icarə müddəti başladıqda) müəyyən edilmiş bir diskont dərəcəsi (icarə müqaviləsinin erkən tarixi və icarənin əsas şərtlərinə tərəflərin öhdəlik götürdükləri tarix) istifadə edilərək uçota alınır.

Ümumi debitor borcu ilə cari dəyər arasındakı fərq qazanılmamış maliyyə gəlirlərini əks etdirir. Bu gəlir icarə müddəti ərzində sabit dövri gəlirlilik dərəcəsini əks etdirən xalis investisiya metodundan istifadə edilərək (vergidən əvvəl) uçota alınır. Artan məsrəflər birbaşa icarə müqaviləsi və razılaşdırılması ilə əlaqələndirilir, maliyyə icarəsi borcunun ilkin ölçülməsinə daxil edilir və icarə müddəti ərzində tanınan gəlir məbləğini azaldır. İcarələrdən maliyyə gəliri mənfəət və zərər daxilində faiz gəliri daxilində uçota alınır.

**9 saylı MHBS Maliyyə Alətləri**

(a) Təsnifat və ölçülmə

9 saylı MHBS-yə uyğun olaraq, "yalnız əsas məbləğin və faizlərin ödənişi" (YƏMFÖ) meyarına cavab verməyən bütün borc maliyyə aktivləri ilkin tanımada, mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə (MZVƏD) təsnif olunur. 9 saylı MHBS-yə əsasən "klassik kredit sazişi" meyarlarına cavab verməyən bütün borc alətləri, məsələn hazır dəyişiklik parametrlərinə malik alətlər və ya "reqres hüququ olmayan kredit" mənfəət və ya zərər ilə ədalətli dəyərlə ölçülür. YƏMFÖ meyarlarına cavab verən borc maliyyə aktivləri üçün, ilkin tanınma zamanı təsnifləşdirmə, aşağıdakı alətlərin idarə olunduğu biznes modelinə əsasən, müəyyən edilir:

- "Toplamaq məqsədilə saxlanılan" prinsipi ilə idarə olunan alətlər amortizasiya olunmuş dəyərdə ölçülür (AD);
- "Toplamaq və satış üçün saxlanılan" prinsipi ilə idarə olunan alətlər, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ölçülür (DMGVƏD);
- Ticarət olunan maliyyə aktivləri də daxil olmaqla, digər prinsiplər üzrə idarə olunan alətlər isə, mənfəət və ya zərər ilə ədalətli dəyərdə (MZVƏD) ölçülür.

Kapital maliyyə aktivləri, alətin DMGVƏD kimi təsnif edilməsi üçün geri qaytarılmayan seçim edilmədiyi təqdirdə, ilkin olaraq MVZƏD kimi təsnifləşdirilməlidir. DMGVƏD kimi təsnif edilən kapitala edilən investisiyalar üçün dividend gəliri istisna olmaqla, reallaşmış və reallaşmamış mənfəət və zərərlər daha sonra digər mənfəət və ya zərərə yenidən təsnifləşdirilmədən tanınırlar.

**Maliyyə aktivləri – yenidən təsnifləşdirmə.** Maliyyə alətləri yalnız biznes modelinin həmin aktivlərin idarə olunmasında dəyişikliyin baş verdiyi zaman yenidən təsnif edilir. Yenidən təsnifat prospektiv təsirə malikdir və dəyişikliyi qəbul etdikdən sonra ilkin hesabat tarixi üzrə tətbiq edilir. Bu cür dəyişikliklər çox nadir hallarda baş verir və dövr ərzində belə bir dəyişiklik baş verməmişdir.

(b) Dəyərsizləşmə

9 saylı MHBS-in qəbulu Cəmiyyətin uçot sistemi üçün kredit dəyərsizləşməsi üzrə proqressiv ehtimal olunan kredit zərərini (EOKZ) tətbiq etmişdir. Cəmiyyət bütün icarələr və MVZƏD, eləcə də borcların verilməsinə görə öhdəliklər və maliyyə təminatı müqavilələri (birlikdə bu bölmədə "maliyyə alətləri" olaraq təqdim edilmişdir) ilə ölçülməyən digər borc maliyyə aktivlərini, kredit ehtimal olunan kredit zərəri üzrə ehtiyatı uçota almışdır. Kapital alətləri 9 saylı MHBS-yə uyğun olaraq dəyərsizləşmə zərərlərinə məruz qalmamışdır.

EOKZ üzrə ehtiyat, 12 ay müddətindən (12 aylıq EOKZ) artıq meydana gələ biləcək kredit zərərlərinə əsaslanır, o halda ki yarandığı dövrdən sonra, kredit riskində əhəmiyyətli artım olmasın və ehtiyat aktivin qalıq resursuna əsaslanaraq hesablansın (ömürlük ehtimal olunan kredit zərəri və ya ÖEOKZ). 12 aylıq EOKZ, hesabat tarixindən sonrakı 12 ay ərzində mümkün olan maliyyə alətindəki defolt hadisələri nəticəsində baş verən ehtimal olunan kredit zərərlərini təmsil edən ÖEOKZ-un bir hissəsidir. Həm ÖEOKZ, həm də 12 aylıq EOKZ əsas alət bazarı əsasında və ya maliyyə alətlərinin əsasını təşkil edən portfelin xüsusiyyətinə əsasən fərdi qaydada və ya kollektiv olaraq hesablanır.

Cəmiyyət hər hesabat dövrünün sonunda, maliyyə alətinin və ya ümumi portfel üzrə dəyişikliyi nəzərə alaraq ilkin tanımadan sonra maliyyə alətinin kredit riskində əhəmiyyətli dərəcədə artımla bağlı, qiymətləndirmənin həyata keçirilməsi üçün xüsusi qaydalar müəyyən etmişdir. Yuxarıda göstərilmiş proses əsasında, Cəmiyyət icarələrini aşağıdakı 1-ci Mərhələ, 2-ci Mərhələ, 3-cü Mərhələ və SƏKD olaraq qruplaşdırmışdır:

1-ci Mərhələ: İcarələrin ilkin tanıması zamanı, Cəmiyyət ehtiyatı 12 aylıq EOKZ əsasında tanıyır. 1-ci Mərhələ eyni zamanda, kredit riskinin azaldığı və icarələrin 2-ci Mərhələdən bu qrupa yenidən təsnifləşdirildiyi halları da özündə birləşdirir.

2-ci Mərhələ: İcarə verildiyi tarixdən, kredit riskində əhəmiyyətli artım baş verdikdə, Cəmiyyət ÖEOKZ üzrə ehtiyatı uçota alır. 2-ci Mərhələ eyni zamanda, kredit riskinin azaldığı və icarələrin 3-cü Mərhələdən bu qrupa yenidən təsnifləşdirildiyi halları da özündə birləşdirir.

3-cü Mərhələ: Kredit dəyərsizləşməsinə uğramış icarələr. Cəmiyyət ÖEOKZ üzrə ehtiyatı uçota alır.

Cəmiyyətin qalıq məbləğinin tam şəkildə və ya bir hissəsinin bərpasına dair heç bir əsaslı ehtimalı olmayan maliyyə aktivləri üçün aktivlərin ümumi qalıq dəyəri azaldılır. Bu maliyyə aktivlərinin (qismən) tanınmasının dayandırılması hesab olunur.

EOKZ-un hesablanması mexanizmi göstərilmişdir və əsas elementləri aşağıdakılardan ibarətdir:

DE – Defolt Ehtimalı müəyyən olunmuş müddət üzrə defoltun güman edilməsidir. Əgər vəsaitlər hələ də portfeldə mövcuddursa və onların tanınması dayandırılmayıbsa, bu zaman defolt yalnız qiymətləndirilmiş müddətin müəyyən vaxtında baş verə bilər.

DVRMQ – Defolt Vəziyyətində Riskə Məruz Qalma hesabat tarixindən sonra, müqavilə və ya başqa yolla ödəniləcək əsas məbləğin və faizin ödənişi də daxil olmaqla, risklər üzrə ehtimal olunan dəyişikliklərin, qoyulmuş vəsaitlər üzrə ehtimal olunan durğunluq və gecikmiş ödənişlər üzrə yığılmış faizlərin nəzərə alındığı, gələcək defolt tarixinə olan risk ehtimalıdır.

DNZ – Defolt Nəticəsində Zərər, verilmiş müddətdə defolt vəziyyətində yarana biləcək zərər ehtimalıdır. DNZ müqaviləyə uyğun pul axınları ilə kreditorun ehtimal etdiyi alınacaq məbləğ arasındakı fərqə əsaslanır və adətən DVRMQ ilə faiz nisbətində göstərilir.

EOKZ modellərində Cəmiyyət kredit riskinin komponentlərinin (DE, DNZ və DVRMQ) qiymətləndirmələrinə inteqrasiya edilmiş iqtisadi giriş kimi genişmiqyaslı və perspektiv məlumatlara əsaslanır. Dəyərsizləşmə zərərləri və azadolmalar maliyyə aktivinin ümumi qalıq dəyərinin tənzimlənməsi kimi uçota alınan modifikasiya üzrə zərər və ya mənfəətdən ayrı olaraq uçota alınır və açıqlanır.

Pərakəndə portfellər üçün Cəmiyyət, ilkin tanımadan sonra kredit reytinqinin bir bal aşağı düşməsi ilə kredit riskində əhəmiyyətli artıma səbəb olduğunu hesab edir. Portfelin kollektiv qiymətləndirilməsinin aparıldığı seqmentlər üçün, Cəmiyyət aktiv üzrə kredit riskinin əhəmiyyətli dərəcədə artımını həyata keçirmək məqsədilə, xarici valyutada icarələrin tanınması zamanı müştərinin/vəsaitin nəzarət siyahısına köçürülməsi və ya uçotun saxlanılması kimi keyfiyyətə əsaslanan üsul tətbiq edir. Kredit reytinqi və digər meyarların dəyişməsinə baxmayaraq, müqavilə ödənişləri 30 gündən çox gecikdirildiyi təqdirdə, kredit riski ilkin tanınmadan sonra əhəmiyyətli dərəcədə artmış hesab olunur.

Cəmiyyət maliyyə aktivini, eləcə də EOKZ hesabanması üzrə 3-cü Mərhələni (kredit üzrə dəyərsizləşmə) borcalanın müqavilə üzrə 90 gündən artıq gecikmiş ödənişi olduğu və reytinqin bir xal qrupundan daha çox aşağı düşdüyü bütün hallarda, digər keyfiyyət meyarları ilə yanaşı defolt vəziyyəti hesab edir. Cəmiyyət xəzinədarlıq və banklararası qalıqları defolt vəziyyətində nəzərə alır və bir günlük tələblər üzrə ödənişləri fərdi müqavilələrdə göstərildiyi kimi ödənilmədiyi hallarda dərhal tədbirlər həyata keçirir. Cəmiyyət həmçinin müştərinin defolt vəziyyətində olub-olmaması keyfiyyətinin qiymətləndirilməsinin bir hissəsi kimi, ödəmə qabiliyyətini göstərə biləcək bir sıra halları nəzərdən keçirir.

**Gəlir və xərclərin uçotu**

Faiz gəliri və xərcləri amortizasiya olunmuş dəyərdə və ya DMGVƏD ilə əlavə etmə əsasında, effektiv faiz metodundan istifadə etməklə, borc alətləri üzrə uçota alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Cəmiyyət tərəfindən alınmış komissiya haqları, Cəmiyyətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Cəmiyyət kredit verilməsi üzrə öhdəlikləri MZVƏD ilə ölçülən maliyyə öhdəlikləri kimi təsnif etmir.

Kredit dəyərsizləşməsi ilə əldə edilmiş və ya satın alınmış maliyyə aktivləri üçün effektiv faiz dərəcəsi ehtimal edilən pul vəsaitlərinin hərəkəti (ilkin ehtimal olunan kredit zərərləri də daxil olmaqla) ilkin tanınma zamanı ədalətli dəyərə (adətən alış qiyməti ilə) diskont edilmiş dərəcəsidir. Nəticədə, effektiv faiz dərəcəsi kredit uçotu ilə tənzimlənir.

Faiz gəlirləri, maliyyə aktivlərinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır:

i) kredit dəyərsizləşməsinə uğramış (3-cü mərhələ) maliyyə aktivləri üzrə faiz dərəcəsi onların effektiv faiz dərəcəsini AD-yə tətbiq etməklə hesablanır; və

ii) əldə edildikdə və ya satın aldıqda kredit zərərinə məruz qalmış maliyyə aktivləri, AD-yə tətbiq edilən kreditə müvafiq olaraq düzəliş edilmiş effektiv faiz dərəcəsi tətbiq olunmaqla.

Qazanılmamış gəlir icarə müddəti ərzində mənfəətdə tanınır. İcarədar icarə müddəti ərzində sabit gəlir dərəcəsi yaradan qazanılmamış gəlirin məbləğini tanımaq üçün faiz metodundan istifadə edir.

**Digər gəlir və xərc maddələri**

Bütün digər komissiya gəlirləri və sair gəlirlər, adətən, tamamlanma dərəcəsindən asılı olaraq hesablama metodu ilə qeydə alınır. Tamamlanma dərəcəsi faktiki göstərilmiş xidmətlərin ümumi göstərilməli olan xidmətlərə nisbəti kimi müəyyən edilir.

Üçüncü tərəf üçün əməliyyatlar üzrə danışıqlar və ya danışıqlarda iştirakdan yaranan, məsələn, kreditlərin, səhmlərin və ya digər qiymətli kağızların alınması və ya əsas əməliyyatın icrası üzrə əldə edilmiş müəssisələrin alınması və ya satılması kimi komissiyalar və ödənişlər bu əməliyyatların başa çatması zamanı tanınır.

**Əvəzləşdirmə**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Gəlir və xərclər hər hansı mühasibat uçotu standartı və ya standartının şərhi üzrə icazə və tələb olmadığı halda və Cəmiyyətin uçot siyasətində xüsusi olaraq açıqlandıqda, məcmu gəlir hesabatında əvəzləşdirilmir.

**Əmlak, tikili və avadanlıqlar**

Hər hesabat tarixində Cəmiyyət əmlak, tikili və avadanlıqların dəyərdən düşmə göstəricisinin olub-olmadığını qiymətləndirir. Əgər belə göstərici mövcuddursa, Cəmiyyət satış xərcləri və istifadə dəyəri çıxılmaqla, bir aktivin ədalətli dəyərindən daha yüksək olaraq təyin olunan bərpa edilə bilən dəyəri qiymətləndirir. Əmlak və avadanlıqların qalıq dəyəri ehtimal edilən bərpa dəyərindən çox olduqda, bərpa edilə bilən dəyərdə uçota alınır və fərq mənfəət və ya zərər hesabatına dəyərsizləşmə zərəri kimi uçota alınır.

Əmlak və avadanlıqların satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və mənfəət və ya zərər haqqında hesabatda mənfəət/(zərər) kimi qeyd edilir.

Təmir və mühafizə xərcləri baş verdikdə bu mənfəət və ya zərər haqqında hesabatda qeyd edilir.

Köhnəlmə, əmlak və avadanlıqların qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat dövrünün sonunda aşağıdakı illik dərəcələr üzrə perspektivli əsasda uçota alınan dəyişikliklərin təsiri ilə nəzərdən keçirilir:

| | |
|---|---|
| Mebel və qurğular | 20% |
| Kompüter və rabitə avadanlığı | 20% |
| Nəqliyyat vasitələri | 25% |

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak və avadanlıqların tanınmasına xitam verilir. Əmlak və avadanlıqlar kateqoriyasına aid aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**İstifadə hüququ olan aktivlər**

Cəmiyyət istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində tanıyır (məsələn, əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlərin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlanğıc tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər icarə müddəti ərzində düz xətt metodu əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı ömrü istifadə olunmaqla hesablanır. İstifadə hüququ verən aktivlər də dəyərsizləşməyə məruz qalır.

***İcarə öhdəlikləri***. İcarənin başlanğıc tarixində Cəmiyyət icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə həmçinin Cəmiyyət tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Cəmiyyətin ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Cəmiyyət icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin qalıq dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

**Vergitutma**

Mənfəət vergisi xərcləri ödənilməli olan cari vergi və təxirə salınmış vergi xərclərindən ibarətdir.

**Cari vergi**

Ödənilməli olan cari vergi, il üzrə vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Vergiyə cəlb olunan mənfəət digər illərdə vergiyə cəlb olunmuş, yaxud gəlirdən çıxılan və heç vaxt vergiyə cəlb olunmayan, yaxud gəlirdən çıxılmayan gəlir və xərc maddələri ilə əlaqədar məcmu gəlirlər haqqında hesabatda əksini tapmış mənfəətdən fərqlənir. Cəmiyyətin cari vergi ilə bağlı öhdəliyi qanuni qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvəyə minmiş vergi dərəcələrindən istifadə etməklə hesablanır.

**Təxirə salınmış vergi**

Təxirə salınmış vergi maliyyə hesabatlarında əks olunan aktiv və öhdəliklərin balans dəyəri ilə vergiyə cəlb olunan mənfəətin hesablanmasında istifadə edilən müvafiq vergi bazası arasındakı müvəqqəti fərq əsasında tanınır. Təxirə salınmış vergi öhdəlikləri, ümumiyyətlə, vergiyə cəlb olunan bütün müvəqqəti fərqlər üçün tanınır. Təxirə salınmış vergi aktivləri, ümumiyyətlə, gəlirdən çıxılan bütün müvəqqəti fərqlər üçün tanınır, bu şərtlə ki, belə müvəqqəti fərqlərin hesaba alınması üçün gələcəkdə vergiyə cəlb olunacaq mənfəətin əldə olunması ehtimal edilsin.

Təxirə salınmış vergi aktivlərinin balans dəyəri hər hesabat dövrünün sonunda təhlil edilir və aktivin bütün və ya müəyyən hissəsinin bərpa olunması üçün yetərli mənfəətin yaranacağı ehtimal edilməyən həddə qədər azaldılır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri hesabat dövrünün sonuna qanuni qüvvəyə minmiş və ya qismən minmiş vergi dərəcələrinə (və vergi qanunlarına) əsaslanmaqla aktivin satıldığı və ya öhdəliyin yerinə yetirildiyi dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcəsi ilə qiymətləndirilir.
Təxirə salınmış vergi aktivləri və öhdəliklərinin qiymətləndirilməsi Cəmiyyətin hesabat dövrünün sonunda aktiv və öhdəliklərin balans dəyərini bərpa etməsindən və ya ödəməsindən asılı olaraq yaranacaq vergi nəticələrini özündə əks etdirir.

**İl üzrə cari və təxirə salınmış vergilər**

Cari və təxirə salınmış vergi digər məcmu gəlirlər yaxud birbaşa olaraq kapitalda göstərilən maddələrlə bağlı olduğu və nəticə etibarı ilə, müvafiq olaraq digər məcmu gəlirlər və ya birbaşa kapital maddəsi kimi tanındığı hallar istisna edilməklə, mənfəət və ya zərər hesablarında tanınır.

**Əməliyyat vergiləri**

Azərbaycanda Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər də vardır. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi məcmu gəlirlər haqqında hesabata daxil edilir.

**Borc alınmış vəsaitlər**

Borc alınmış vəsaitlər effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərdə uçota alınır.

Nəzərdə tutulan istifadəyə və ya satışa hazır olmaq üçün mütləq vaxt tələb edən aktivin əldə edilməsinə, inşasına və ya istehsalına birbaşa aid olan borc alınmış vəsaitlər üzrə xərclər, aktivin maya dəyərinin bir hissəsi kimi kapitallaşdırılır. Bütün digər borc alınmış vəsaitlər üzrə xərclər baş verdikləri dövrdə xərclənir.

Borc alınmış vəsaitlər üzrə xərclər, vəsaitlərin borc götürülməsi ilə əlaqədar müəssisənin çəkdiyi faiz və digər xərclərdən ibarətdir.

**Buraxılmış borc qiymətli kağızları**

İlkin ölçmədən sonra buraxılmış borc qiymətli kağızları sonradan amortizasiya olunmuş maya dəyəri ilə ölçülür. Amortizasiya olunmuş dəyər, buraxılmış vəsaitlər üzrə hər hansı bir diskont və ya mükafat və effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan xərclər nəzərə alınmaqla hesablanır. Həm öhdəlik, həm də kapital komponenti olan qarışıq maliyyə aləti buraxılış tarixində ayrılır.

**Səhmdar kapitalı**

Səhmdar kapitalı bütün təsisçilər tərəfindən qoyulmuş kapitalın məbləğidir. Payların ümumi məbləği Cəmiyyətin nizamnamə kapitalında təsisçilər arasında mütənasib bölüşdürülməlidir. Cəmiyyət qanunvericiliyə uyğun olaraq tərəflərin qarşılıqlı razılığı ilə nizamnamə kapitalını artıra və ya azalda bilər.

**Dividendlər**

Cəmiyyətin dividendləri elan edib ödəmək imkanları Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada tənzimlənir.

Adi səhmlərə aid olan dividendlər elan edildiyi müddətdə bölüşdürülməmiş mənfəətdə əks olunur.

## 3. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN QƏBULU

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) və BMUSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2021-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi ("IBOR") üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, **"Baza Faiz Dərəcəsi İslahatı"nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-yə edilmiş Düzəlişləri)** dərc etmişdir. İslahatlar hedcinq edilmiş maddənin və ya hedcinq alətinin göstəricilərinə əsaslanan pul axınlarının vaxtı və/və ya məbləği ilə bağlı qeyri-müəyyənliyə səbəb olarsa, hedcinq əlaqəsi təsirə məruz qalır. Bu düzəlişlərin heç bir faiz dərəcəsi hedcinq əlaqəsi olmadığı üçün Cəmiyyətin maliyyə hesabatlarına təsiri yoxdur.

**"Müəssisələrin Birləşməsi" adlı 3 saylı MHBS. "Müəssisə" tərifinə edilən Düzəliş** – Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı. Alınan aktivin müəssisə və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznesi alarkən tanıyır.

Dəyişikliklərə əsasən, "biznes"in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkib hissəsidir.

**"Əhəmiyyətlilik" anlayışının yeni tərifi** – BMUSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər "Maliyyə Hesabatlarının Təqdimatı" adlı 1 saylı BMUS və "Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar" adlı 8 saylı BMUS-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

15 may 2020-ci ildə BMUSŞ tərəfindən **"COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri"nə (16 saylı MHBS-yə edilmiş Düzəliş)** icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-yə edilmiş düzəliş) 16 saylı MHBS-yə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVİD-19 ilə əlaqəli icarə güzəştlərini hesaba vermələrinin tələb edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarının tələb edilməsi; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrinin və əvvəlki dövr rəqəmlərini yenidən təkrar etməmələrinin tələb edilməsi.

Dəyişikliklər 1 iyun 2021-ci il tarixindən etibarən qüvvədədir. Düzəlişlərin erkən tətbiqinə icazə verilir. Bu standartın qəbul edilməsi maliyyə hesabatlarına hər hansı bir formada təsir etməmişdir.

Əksi qeyd olunmadığı halda, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənilmir.

## 4. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir.

**17 saylı MHBS – "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir.

17 saylı MHBS, 2023-cü il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər** – 2020-ci il yanvar ayında BMUSŞ "**Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı"nı (1 saylı BMUS üzrə Düzəlişlər)** dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-yə edilmiş Düzəliş** - 2020-ci ilin may ayında BMUSŞ tərəfindən "Müəssisələrin Birləşməsi" adlı 3 saylı MHBS standartına düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş Maliyyə Hesabatlılığının Konseptual Əsaslarına istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları"na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya "Təminatlar" adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial "2 gün" mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları"na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır. Dəyişikliklər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və perspektivli şəkildə tətbiq olunur.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar – 16 saylı BMUS-a edilən düzəlişlər**. 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi zaman təqdim olunan ən erkən dövrün başlanğıcında və ya ondan sonra istifadəyə verilə bilən əmlak, tikili və avadanlıqlara retrospektiv şəkildə tətbiq edilməlidir.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-a edilən düzəlişlər**. 2020-ci ilin may ayında BMUSŞ 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**"Beynəlxalq Maliyyə Hesabatlılığı Standartlarının İlk dəfə Tətbiqi" adlı 1 saylı MHBS –** ilkin tətbiq edən törəmə olaraq. BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**9 saylı MHBS Maliyyə Alətləri - Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı**. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir. Düzəliş 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Cəmiyyət müəssisənin bu düzəlişin ilk tətbiq olunduğu illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilən və ya mübadilə edilən maliyyə öhdəliklərinə düzəlişləri tətbiq edəcəkdir.

**"Kənd Təsərrüfatı" adlı 41 saylı BMUS – Ədalətli dəyər ölçmələrində vergi.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 41 saylı BMUS Kənd Təsərrüfatı Standartına dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-un 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır. Müəssisə düzəlişləri 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcında və ya bu tarixdən sonra ədalətli dəyər ölçmələrinə perspektivli şəkildə tətbiq edir. Düzəlişin erkən tətbiqinə icazə verilir.

**"Konsolidə Edilmiş Maliyyə Hesabatları" adlı 10 saylı MHBS və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi"**–10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti özündə ehtiva edir. Düzəlişlər, xüsusi olaraq, kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, BMUSŞ tərəfindən müəyyən edilməmişdir; lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi qeyd olunmadığı halda, yeni standartların Cəmiyyətinn maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsi gözlənilmir.

## 5. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ EHTİMALLAR VƏ MÜLAHİZƏLƏR

Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin edilməsini tələb edir. Rəhbərlik, mütəmadi olaraq, öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər çərçivəsində məntiqli hesab edilən digər faktlara əsaslandırır. Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Aşağıda göstərilən təxminlər və mülahizələr Cəmiyyətin maliyyə vəziyyətinin təsvir edilməsi üçün zəruri hesab edilir.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin qalıq dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**Təxirə salınmış mənfəət vergisi aktivlərinin tanınması.** Təxirə salınmış mənfəət vergisi aktivlərinin qalıq dəyəri 31 dekabr 2021 və 2020-ci il tarixlərinə, müvafiq olaraq, 89,186 AZN və 45,705 AZN təşkil etmişdir. Rəhbərlik təxirə salınmış mənfəət vergisi aktivinin qalıq dəyərinin gələcəkdə tam olaraq həyata keçiriləcəyinə əmindir.

**EOKZ ehtiyatının ölçülməsi**. Amortizasiya olunmuş dəyərlə və Digər Məcmu Gəlir vasitəsilə Ədalətli Dəyərdə (DMGVƏD) ölçülən maliyyə aktivləri üzrə Ehtimal Olunan Kredit Zərərləri ilə bağlı ehtiyatın ölçülməsi kompleks modellərin tətbiqi və gələcək iqtisadi şərtlər və kredit yanaşmaları (məsələn, müştərilərin defolt ehtimalı və nəticədə yaranan zərərlər) ilə əlaqədar əhəmiyyətli fərziyyələrin istifadəsini tələb edən bir sahədir. EOKZ-nin ölçülməsi üçün uçot tələblərinin tətbiqinə dair bir sıra əhəmiyyətli təxminlərin edilməsi də tələb olunur, məsələn:

- Kredit riskinin əhəmiyyətli dərəcədə artımı ilə bağlı meyarların müəyyənləşdirilməsi;
- EOKZ-un ölçülməsi üçün müvafiq model və fərziyyələrin seçilməsi;
- Hər bir məhsul/bazar və müvafiq EOKZ üçün perspektivli ssenarilərin sayının və nisbi çəkisinin müəyyənləşdirilməsi; və
- EOKZ-un ölçülməsi məqsədilə bənzər maliyyə aktivləri qruplarının yaradılması.

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Bank hesablarındakı nağd pul vəsaitləri | 4,070 | 30,889 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **4,070** | **30,889** |

EOKZ-un ölçülməsi məqsədi ilə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqlar 1-ci Mərhələyə daxil edilir. Bu qalıqlar üçün EOKZ əhəmiyyətsiz bir məbləğdir.

## 7. KREDİT TƏŞKİLATLARINDAN ALINACAQ VƏSAİTLƏR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Bloklanmış vəsaitlər | 6,850,825 | - |
| Bankda yerləşdirilmiş depozitlər | 510,000 | 4,250,000 |
| Bankda depozit üzrə hesablanmış faiz gəliri | 150 | 1,050 |
| **Cəmi kredit təşkilatlarından alınacaq vəsaitlər** | **7,360,975** | **4,251,050** |

Bankda depozitlər 2021 və 2020-ci illər ərzində ABŞ dolları ilə yerləşdirilib. Depozit yerli bankda 2021 və 2020-ci illərdə ABŞ dolları üzrə 0,1 % faiz dərəcəsi ilə yerləşdirilib.

EOKZ-nin ölçülməsi məqsədilə kredit təşkilatlarının balansından alınacaq vəsaitlər 1-ci Mərhələyə daxildir. Bu qalıq üçün EOKZ əhəmiyyətsiz bir məbləği əks etdirir.

Kredit təşkilatlarına ödənilməli olan 6,850,825 AZN məbləğində vəsait "Hermes Finance" QSC tərəfindən alınmış borclara görə "Paşa Bank" ASC-yə girov qoyulmuş bloklanmış məbləğdir.

## 8. TÖRƏMƏ MÜƏSSİSƏYƏ İNVESTİSİYA

Cəmiyyət 31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində "Caspian Auto Import" MMC-nin ("Törəmə Müəssisə") səhmlərinin 50%-ni 150 AZN məbləğində nağd pul qarşılığında əldə etmişdir. Cəmiyyət Törəmə Müəssisəyə nəzarət etsə də, maliyyə hesabatlarını konsolidasiya etməmişdir. Törəmə Müəssisə və investisiya dəyəri metodundan istifadə etməklə uçota alındı. 31 dekabr 2021-ci il tarixində başa çatmış il ərzində Cəmiyyət Törəmə Müəssisədən 135,000 AZN məbləğində dividend gəliri tanımışdır.

## 9. MALİYYƏ İCARƏLƏRİ ÜZRƏ XALİS İNVESTİSİYA

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| **Korporativ icarələr:** | | |
| - Avto icarələr | 1,441,964 | 1,594,457 |
| - Daşınmaz əmlak | 483,590 | 694,966 |
| **Fərdi şəxslərə verilmiş icarələr və kreditlər:** | | |
| - Avto icarələr | 12,535,869 | 5,415,821 |
| - Daşınmaz əmlak | 2,012,992 | 3,625,318 |
| - Lombard icarələri | 2,020,550 | 694,409 |
| **Cəmi müştərilərə verilmiş icarələr və kreditlər** | **18,494,965** | **12,024,971** |
| Çıxılsın: Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | (209,020) | (104,949) |
| **Cəmi maliyyə icarələri üzrə xalis investisiyanın qalıq dəyəri** | **18,285,945** | **11,920,022** |

| **Maliyyə icarəsinə ümumi investisiya:** | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Bir ildən az | 13,612,321 | 7,987,130 |
| Bir ildən beş ilədək | 8,992,822 | 7,055,800 |
| **Cəmi maliyyə icarəsinə ümumi investisiya** | **22,605,143** | **15,042,930** |
| Qazanılmamış maliyyə gəlirləri | (4,110,178) | (3,017,959) |
| **Maliyyə icarəsinə xalis investisiya** | **18,494,965** | **12,024,971** |
| Çıxılsın: Ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (209,020) | (104,949) |
| **Maliyyə icarələrinə xalis investisiya** | **18,285,945** | **11,920,022** |

31 dekabr 2021 və 2020-ci il tarixlərinə, müvafiq olaraq, maliyyə icarələri üzrə xalis investisiyaya daxil olan vəsaitlər, 421,906 AZN və 281,443 min AZN məbləğlərində hesablanmış faizlər üzrə alınacaq vəsaitlərdir.

| | Korporativ icarələr | Fərdi şəxslərə verilmiş icarələr və kreditlər | Cəmi |
|---|---|---|---|
| 1 yanvar 2021-ci il tarixinə qalıq | (16,782) | (88,167) | (104,949) |
| Ehtimal olunan kredit zərərinin tutulması | (48,566) | (55,505) | (104,071) |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **(65,348)** | **(143,672)** | **(209,020)** |

| | Korporativ icarələr | Fərdi şəxslərə verilmiş icarələr və kreditlər | Cəmi |
|---|---|---|---|
| 1 yanvar 2020-ci il tarixinə qalıq | (194,674) | (67,554) | (262,228) |
| Ehtimal olunan kredit zərərinin bərpası/(tutulması) | 177,892 | (20,613) | 157,279 |
| **31 dekabr 2020-ci il tarixinə qalıq** | **(16,782)** | **(88,167)** | **(104,949)** |

## İcarə və kreditlərin kredit keyfiyyəti

| | 31 dekabr 2021-ci il | | | |
|---|---|---|---|---|
| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | Cəmi |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 14,912,458 | - | - | 14,912,458 |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | - | 2,088,628 | - | 2,088,628 |
| Fərdi olaraq dəyərsizləşmiş | - | - | 1,493,879 | 1,493,879 |
| Çıxılsın: ehtimal olunan kredit zərəri üzrə ehtiyat | (40,260) | (54,253) | (114,507) | (209,020) |
| **Cəmi:** | **14,872,198** | **2,034,375** | **1,379,372** | **18,285,945** |

| | 31 dekabr 2020-ci il | | | |
|---|---|---|---|---|
| | 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ | Cəmi |
| Vaxtı keçməmiş və dəyərsizləşməmiş | 10,227,908 | - | - | 10,227,908 |
| Vaxtı keçmiş, lakin dəyərsizləşməmiş | - | 1,692,114 | - | 1,692,114 |
| Fərdi olaraq dəyərsizləşmiş | - | - | 104,949 | 104,949 |
| Çıxılsın: Ehtimal olunan kredit zərərləri üzrə ehtiyat | - | - | (104,949) | (104,949) |
| **Cəmi** | **10,227,908** | **1,692,114** | **-** | **11,920,022** |

Aşağıdakı cədvəldə 31 dekabr 2021-ci il tarixinə olan icarə və kreditlərin kredit keyfiyyəti haqqında məlumat verilir:

| | Ümumi icarələr | Ehtimal olunan kredit zərəri üzrə ehtiyat | İcarələr üzrə xalis investisiya | Ümumi icarə və kreditlər üzrə EOKZ-nin nisbəti (% ilə) |
|---|---|---|---|---|
| **Korporativ icarələr** | | | | |
| - Vaxtı keçməmiş | 1,150,971 | (7,635) | 1,143,336 | 0.66 |
| - 30 gündən az vaxtı keçmiş | 478,415 | (53,873) | 424,542 | 11.26 |
| - 31 gündən 60 günədək vaxtı keçmiş | - | - | - | - |
| - 61 gündən 90 günədək vaxtı keçmiş | - | - | - | - |
| - 91 gündən 180 günədək vaxtı keçmiş | 200,143 | (3,840) | 196,303 | 1.92 |
| - il ərzində 181 günədək vaxtı keçmiş | 96,026 | - | 96,026 | - |
| **Cəmi korporativ icarələr** | **1,925,555** | **(65,348)** | **1,860,207** | **3.39** |
| **Fərdi şəxslərə verilmiş icarələr və kreditlər** | | | | |
| - Vaxtı keçməmiş | 12,023,814 | (20,796) | 12,003,018 | 0.17 |
| - 30 gündən az vaxtı keçmiş | 2,883,788 | (21,887) | 2,861,901 | 0.76 |
| - 31 gündən 60 günədək vaxtı keçmiş | 890,522 | (45,690) | 844,832 | 5.13 |
| - 61 gündən 90 günədək vaxtı keçmiş | 177,082 | (3,295) | 173,787 | 1.86 |
| - 91 gündən 180 günədək vaxtı keçmiş | 104,171 | (3,502) | 100,669 | 3.36 |
| - il ərzində 181 günədək vaxtı keçmiş | 264,763 | (19,956) | 244,807 | 7.54 |
| - 2 ildən bir ilədək vaxtı keçmiş | 225,270 | (28,546) | 196,724 | 12.67 |
| **Cəmi fərdi şəxslərə verilmiş icarələr və kreditlər** | **16,569,410** | **(143,672)** | **16,425,738** | **0.87** |
| **Cəmi maliyyə icarələri üzrə xalis investisiya** | **18,494,965** | **(209,020)** | **18,285,945** | **1.13** |

Aşağıdakı cədvəldə 31 dekabr 2020-ci il tarixinə olan icarə və kreditlərin kredit keyfiyyəti haqqında məlumat verilir:

| | Ümumi icarələr | Ehtimal olunan kredit zərəri üzrə ehtiyat | İcarələr üzrə xalis investisiya | Ümumi icarə və kreditlər üzrə EOKZ-nin nisbəti (% ilə) |
|---|---|---|---|---|
| **Korporativ icarələr** | | | | |
| - Vaxtı keçməmiş | 1,488,405 | - | 1,488,405 | 0.00 |
| - 30 gündən az vaxtı keçmiş | 67,759 | - | 67,759 | 0.00 |
| - 31 gündən 60 günədək vaxtı keçmiş | 440,576 | - | 440,575 | 0.00 |
| - 61 gündən 90 günədək vaxtı keçmiş | 292,684 | - | 292,684 | 0.00 |
| **Cəmi korporativ icarələr** | **2,289,424** | **-** | **2,289,423** | **0.00** |
| **Fərdi şəxslərə verilmiş icarələr və kreditlər** | | | | |
| - Vaxtı keçməmiş | 5,226,564 | - | 5,226,564 | 0.00 |
| - 30 gündən az vaxtı keçmiş | 3,442,867 | - | 3,442,867 | 0.00 |
| - 31 gündən 60 günədək vaxtı keçmiş | 691,767 | - | 691,767 | 0.00 |
| - 61 gündən 90 günədək vaxtı keçmiş | 269,401 | - | 269,401 | 0.00 |
| - 91 gündən 180 günədək vaxtı keçmiş | 79,813 | (79,813) | - | 100.00 |
| - il ərzində 181 günədək vaxtı keçmiş | 25,136 | (25,136) | - | 100.00 |
| **Cəmi fərdi şəxslərə verilmiş icarələr və kreditlər** | **9,735,548** | **(104,949)** | **9,630,599** | **1.08** |
| **Cəmi maliyyə icarələrinə xalis investisiya** | **12,024,972** | **(104,949)** | **11,920,022** | **0.87** |

## 10. ƏMLAK, TİKİLİ VƏ AVADANLIQLAR

| | Mebel və qurğular | Kompüterlər və digər rabitə avandalıqları | Nəqliyyat vasitələri | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyərdə** | | | | |
| **1 yanvar 2020-ci il** | **2,411** | **11,669** | **57,800** | **71,880** |
| Əlavələr | 629 | - | - | 629 |
| **31 dekabr 2020-ci il** | **3,040** | **11,669** | **57,800** | **72,509** |
| Əlavələr | 39,542 | 1,744 | 135,000 | 176,286 |
| Silinmə | (330) | (739) | (57,800) | (58,869) |
| **31 dekabr 2021-ci il** | **42,252** | **12,674** | **135,000** | **189,926** |
| **Yığılmış amortizasiya** | | | | |
| **1 yanvar 2020-ci il** | **(577)** | **(3,397)** | **(3,773)** | **(7,747)** |
| İl üzrə xərclər | (991) | (2,727) | (8,128) | (11,846) |
| **31 dekabr 2020-ci il** | **(1,568)** | **(6,124)** | **(11,901)** | **(19,593)** |
| İl üzrə xərclər | (10,080) | (1,710) | (39,008) | (50,798) |
| Silinmə | 330 | 739 | 17,159 | 18,228 |
| **31 dekabr 2021-ci il** | **(11,318)** | **(7,095)** | **(33,750)** | **(52,163)** |
| **Xalis qalıq dəyəri** | | | | |
| **31 dekabr 2021-ci il** | **30,934** | **5,579** | **101,250** | **137,763** |
| **31 dekabr 2020-ci il** | **1,472** | **5,545** | **45,899** | **52,916** |

## 11. İSTİFADƏ HÜQUQU OLAN AKTİVLƏR

| | Cəmi |
|---|---|
| **1 yanvar 2020-ci il tarixinə qalıq** | - |
| **1 yanvar 2021-ci il tarixinə qalıq** | - |
| İl ərzində əlavələr | 120,878 |
| İl üzrə köhnəlmə xərci | (38,461) |
| **31 dekabr 2021-ci il tarixinə qalıq** | **82,417** |

## 12. MƏNFƏƏT VERGİSİ

### *(a) Mənfəət vergisi üzrə komponentlər*

Mənfəət vergisi xərci aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (263,145) | (307,540) |
| Təxirə salınmış mənfəət vergisi mənfəəti/(xərci) | 43,481 | (46,215) |
| **İl üzrə mənfəət vergisi xərci** | **(219,664)** | **(353,755)** |

### *(b) Vergi xərcləri ilə müvafiq vergi dərəcəsinə vurulmuş mənfəət və ya zərərin üzləşdirilməsi*

Cəmiyyətin gəlirlərinin əsas hissəsinə 20% mənfəət vergisi tətbiq edilir. Nəzərdə tutulan və faktiki tətbiq edilən vergi hesablamalarının üzləşdirilməsi aşağıda göstərilir:

| | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | 1,102,159 | 1,739,970 |
| Qüvvədə olan vergi dərəcəsi ilə nəzəri vergi (20%) | (220,432) | (347,994) |
| Dividend gəliri üzrə ödəmə mənbəyindən tutulan verginin təsiri (10%) | 13,500 | - |
| Daimi fərqlərin vergi təsiri | (12,732) | (5,761) |
| **İl üzrə mənfəət vergisi xərci** | **(219,664)** | **(353,755)** |

### *(c) Müvəqqəti fərqə görə təhlil edilmiş təxirə salınmış vergilər*

MHBS ilə Azərbaycan Respublikasının vergi qanunvericiliyi arasındakı fərqlər maliyyə hesabatlılığı məqsədləri üçün aktiv və öhdəliklərin qalıq dəyəri ilə vergi bazaları arasında müvəqqəti fərqləri yaradır.

Bu müvəqqəti fərqlər üzrə hərəkətlərin vergi təsiri aşağıda verilmiş və 20% dərəcəsi ilə qeydə alınmışdır.

| | 1 yanvar 2021-ci il | Mənfəət və ya zərərə daxil edilmiş | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi təsiri** | | | |
| Maliyyə icarələri üzrə xalis investisiya | 50,738 | 40,514 | 91,252 |
| İcarə öhdəliyi | - | 19,627 | 19,627 |
| Digər cari öhdəliklər | 3,422 | 3,453 | 6,875 |
| Kredit təşkilatlarından alınacaq məbləğ | - | 212 | 212 |
| Əmlak, tikili və avadanlıqlar | (333) | 333 | - |
| Borc alınmış vəsaitlər | (8,122) | (2,588) | (10,710) |
| Borc qiymətli kağızları | - | (1,587) | (1,587) |
| İstifadə hüququ olan aktivlər | - | (16,483) | (16,483) |
| **Xalis təxirə salınmış mənfəət vergisi aktivi** | **45,705** | **43,481** | **89,186** |

| | 1 yanvar 2020-ci il | Mənfəət və ya zərərə daxil edilmiş | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **Vergi bazasını azaldan/(artıran) müvəqqəti fərqlərin vergi təsiri** | | | |
| Maliyyə icarələri üzrə xalis investisiya | 90,753 | (40,015) | 50,738 |
| Digər cari öhdəliklər | 1,500 | 1,922 | 3,422 |
| Əmlak, tikili və avadanlıqlar | (333) | - | (333) |
| Borc alınmış vəsaitlər | - | (8,122) | (8,122) |
| **Xalis təxirə salınmış mənfəət vergisi aktivi** | **91,920** | **(46,215)** | **45,705** |

## 13. SƏHMDAR KAPİTALI

31 dekabr 2021-ci il tarixinə Cəmiyyətin buraxılmış nizamnamə kapitalının qeydə alınmış məbləğinin nominal dəyəri 615,000 AZN təşkil etmişdir (31 dekabr 2020-ci il: 520,200 AZN).

Adi səhmlərin ümumi icazə verilən sayı 2,050 ədəd səhmdir (31 dekabr 2020-ci il: 1,734 ədəd səhm). Bütün səhmlər nominal dəyəri 300 AZN olan hissələrdir. 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə 316 ədəd yeni səhm buraxılmış və ödənilmişdir.

31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə 187,250 AZN məbləğində dividend elan edilmiş və ödənilmişdir (31 dekabr 2020-ci il: 2,010,000 AZN).

Bütün dividendlər Azərbaycan manatı ilə elan olunur və ödənilir. Azərbaycan qanunvericiliyinə uyğun olaraq, Cəmiyyət, Milli Mühasibat Uçotu Qaydalarına uyğun olaraq hazırlanmış maliyyə hesabatları əsasında mənfəəti divident kimi bölür.

## 14. BORC ALINMIŞ VƏSAİTLƏR

31 dekabr 2021-ci il tarixinə Cəmiyyət tərəfindən alınmış vəsaitlər aşağıdakı maliyyə təşkilatları və şəxslər tərəfindən təmin edilmişdir.

| Kreditorlar | Effektiv faiz dərəcəsi | Valyuta | Son ödəmə tarixi | 31 dekabr 2021-ci il |
|---|---|---|---|---|
| "Pasha Bank" ASC | 6.3% | AZN | 30.09.2022 | 4,250,744 |
| "Pasha Bank" ASC | 8.5% | AZN | 14.01.2022 | 512,047 |
| "Pasha Bank" ASC | 8.5% | AZN | 28.03.2022 | 2,556,623 |
| "Pasha Bank" ASC | 14% | AZN | 22.04.2024 | 4,029,584 |
| "Pasha Bank" ASC | 15% | AZN | 22.07.2022 | 1,125,451 |
| "Pasha Bank" ASC | 15% | AZN | 25.07.2022 | 366,717 |
| "Bank BTB" ASC | 8% | USD | 27.04.2023 | 1,701,511 |
| "Bank BTB" ASC | 8% | USD | 03.09.2023 | 171,056 |
| "Bank BTB" ASC | 10% | AZN | 30.12.2022 | 945,709 |
| "Hermes Financial Consulting Service" Incorporated Company | 5% | USD | 28.12.2023 | 27,278 |
| Cənab Cəfərov Rəvan | 4.5% | USD | 14.01.2022 | 55,969 |
| Cənab Cəfərov Rəvan | 4.5% | USD | 01.10.2022 | 1,904,529 |
| Xanım Sadiq Səbinə | 5.34% | USD | 19.03.2022 | 2,557,943 |
| Xanım Sadiq Səbinə | 4.5% | USD | 28.12.2022 | 2,149,590 |
| **Cəmi borc alınmış vəsaitlər** | | | | **22,354,751** |

31 dekabr 2020-ci il tarixinə Cəmiyyət tərəfindən alınmış vəsaitlər aşağıdakı maliyyə təşkilatları və şəxslər tərəfindən təmin edilmişdir.

| Kreditorlar | Effektiv faiz dərəcəsi | Valyuta | Son ödəmə tarixi | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|
| "Pasha Bank" ASC | 8,5% | AZN | 01.10.2021 | 4,252,762 |
| "Pasha Bank" ASC | 15% | AZN | 22.07.2022 | 2,851,700 |
| "Pasha Bank" ASC | 15% | AZN | 25.07.2022 | 1,390,346 |
| "Bank BTB" ASC | 10% | AZN | 30.03.2021 | 430,470 |
| "Hermes Financial Consulting Service" Incorporated Company | 5% | USD | 28.12.2021 | 28,382 |
| Cənab Cəfərov Rəvan | 4.5% | USD | 01.20.2021 | 1,905,143 |
| Cənab Cəfərov Rəvan | 10% | AZN | 03.11.2021 | 515,429 |
| Cənab Cəfərov Rəvan | 10% | AZN | 28.12.2021 | 81,057 |
| Xanım Sadiq Səbinə | 4.5% | USD | 28.12.2021 | 2,346,880 |
| Cənab Sadiq Səbinə | 10% | AZN | 28.12.2021 | 515,429 |
| **Cəmi borc alınmış vəsaitlər** | | | | **14,317,598** |

31 dekabr 2021-ci il tarixinə borc alınmış vəsaitlərə daxil olan faiz xərcləri 41,874 AZN təşkil etmişdir (31 dekabr 2020-ci il: 46,739 AZN).

Borc alınmış vəsaitlərin ilin əvvəlinə və ilin sonuna məbləğlərinin maliyyə fəaliyyətlərindəki nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıda göstərilmişdir:

| | Məbləğ |
|---|---|
| **1 yanvar 2020-ci il** | **16,696,846** |
| **Nağd pul axınları** | |
| Daxilolmalar | 26,826,298 |
| Yenidən ödənişlər | (29,156,627) |
| Ödənilmiş faizlər | (1,576,803) |
| **Qeyri-nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 1,527,884 |
| **31 dekabr 2020-ci il** | **14,317,598** |
| **Nağd pul axınları** | |
| Daxilolmalar | 33,310,335 |
| Yenidən ödənişlər | (25,268,317) |
| Ödənilmiş faizlər | (1,909,681) |
| **Qeyri-nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 1,904,816 |
| **31 dekabr 2021-ci il** | **22,354,751** |

## 15. BURAXILMIŞ BORC QİYMƏTLİ KAĞIZLARI

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Buraxılmış borc qiymətli kağızları | 2,242,066 | 1,400,000 |
| Hesablanmış ödəniləcək faiz | 3,660 | 583 |
| **Cəmi borc qiymətli kağızları** | **2,245,726** | **1,400,583** |

20 avqust 2020-ci il tarixində Cəmiyyət "BTB Kapital İnvestisiya Şirkəti" ASC ilə ümumi məbləği 1,400,000 AZN olan istiqraz müqaviləsi imzalamışdır, müqavilənin ödəmə tarixi 20 avqust 2023-cü il, illik faiz dərəcəsi 15% təşkil edir. Əlavə olaraq, 7 iyul 2021-ci il tarixində Şirkət "BTB Kapital İnvestisiya Şirkəti" ASC ilə 7 iyul 2023-cü il ödəmə tarixi, illik faiz dərəcəsi 4,8% olan ümumi məbləği 850,000 AZN məbləğində istiqraz müqaviləsi imzalamışdır.

31 dekabr 2021-ci il tarixinə buraxılmış borc qiymətli kağızlarına daxil edilmiş hesablanmış faiz xərcləri 3,660 AZN təşkil etmişdir (31 dekabr 2020-ci il: 583 AZN).

Borc alınmış vəsaitlərin ilin əvvəlinə və ilin sonuna məbləğlərinin maliyyə fəaliyyətlərindəki nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıda göstərilmişdir:

| | Məbləğ |
|---|---|
| **1 yanvar 2020-ci il** | - |
| **Nağd pul axınları** | |
| Daxilolmalar | 1,400,000 |
| Ödənilmiş faizlər | (76,417) |
| **Qeyri-nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 77,000 |
| **31 dekabr 2020-ci il** | **1,400,583** |
| **Nağd pul axınları** | |
| Daxilolmalar | 842,066 |
| Ödənilmiş faizlər | (228,032) |
| **Qeyri-nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 231,109 |
| **31 dekabr 2020-ci il** | **2,245,726** |

## 16. İCARƏ ÖHDƏLİYİ

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Cari icarə öhdəlikləri | 77,031 | - |
| Uzunmüddətli icarə öhdəlikləri | 21,103 | - |
| **Cəmi icarə ödənişi** | **98,134** | - |

| | Bir il ərzində | Bir ildən çox | Cəmi |
|---|---|---|---|
| İcarə ödənişləri | (82,019) | (21,255) | (103,274) |
| Maliyyə ödənişi | 4,988 | 152 | 5,140 |
| **Cəmi icarə ödənişi** | **(77,031)** | **(21,103)** | **(98,134)** |

İcarə öhdəliklərinin ilin əvvəlinə və ilin sonuna məbləğlərinin maliyyə fəaliyyətlərindəki nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıda göstərilmişdir:

| | Məbləğ |
|---|---|
| **1 yanvar 2020-ci il** | - |
| **1 yanvar 2021-ci il** | - |
| **Pul axınları** | |
| Əsas borcun ödənilməsi | (18,044) |
| Ödənilmiş faizlər | (5,356) |
| **Qeyri-nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 5,356 |
| Yeni icarə | 120,878 |
| İcarə güzəştləri | (4,700) |
| **31 dekabr 2021-ci il** | **98,134** |

## 17. DİGƏR ÖHDƏLİKLƏR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| Hesablanmış xərclər | 21,095 | 25,108 |
| İşçilərə ödəniləcək vəsaitlər | 17,266 | - |
| **Digər öhdəliklər** | **38,361** | **25,108** |

## 18. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| İşçilər ilə bağlı kompensasiya | (219,872) | (180,019) |
| Sosial Müdafiə Fonduna ödənişlər | (39,125) | (29,490) |
| **Cəmi heyət ilə bağlı xərclər** | **(258,997)** | **(209,509)** |

## 19. ÜMUMİ VƏ İNZİBATİ XƏRCLƏR

| | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Köhnəlmə və amortizasiya xərcləri | (89,259) | (11,846) |
| Peşəkar xidmət haqqı | (36,130) | (24,110) |
| Nəqliyyat xərcləri | (17,433) | (14,121) |
| Avtomobil istismar xərcləri | (16,348) | (4,865) |
| İcarə xərcləri | (9,212) | (13,381) |
| Proqram təminatı dəyəri | (9,000) | (6,000) |
| Rabitə xərcləri | (7,181) | (4,883) |
| Xeyriyyə xərcləri | (5,000) | (15,000) |
| Kommunal xərclər | (4,047) | (1,947) |
| Ofis ləvazimatları | (1,443) | (3,685) |
| Sığorta xərcləri | (834) | (484) |
| Əsas aktivlərin silinməsi üzrə zərər | (641) | - |
| Digər | (29,800) | (21,641) |
| **Cəmi ümumi və inzibati xərclər** | **(226,328)** | **(121,963)** |

## 20. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi Cəmiyyətin fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir və Cəmiyyətin əməliyyatlarının əsas elementini təşkil edir. Cəmiyyətin əməliyyatlarına xas olan əsas risklər aşağıdakılarla bağlıdır:

- Kredit riski;
- Likvidlik riski;
- Bazar riski.

Cəmiyyət effektiv və səmərəli risklərin idarə edilməsi prosesinin tətbiqinin önəmli olduğunu qəbul edir. Belə prosesin tətbiqinə imkan yaratmaq üçün Cəmiyyət risklərin idarə edilməsi qaydalarını yaratmışdır ki, bunun da əsas məqsədi Cəmiyyəti risklərdən qorumaq və Cəmiyyətin qarşıda qoyulmuş fəaliyyət məqsədlərinə nail olması üçün imkan yaratmaqdır. Risklərin idarə edilməsi çərçivəsində Cəmiyyət aşağıdakı riskləri idarə edir:

**Kredit riski**

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallarda Cəmiyyət kredit riskinə məruz qalır.

Kredit riskinə məruz qalma, digər tərəflərə borc vermə və maliyyə aktivlərinin artırılmasına və balansdankənar kreditlə bağlı öhdəliklərin yaranmasına səbəb olan digər əməliyyatlarda iştirak etmə nəticəsində yaranır.

**Kredit risklərinin idarə edilməsi**. Kredit riski Cəmiyyətin biznes fəaliyyəti üçün ən əhəmiyyətli sayılan riskidir; rəhbərlik bu səbəbdən kredit riskinə məruz qalmanı diqqətlə idarə edir.

Risklərin idarə edilməsi məqsədləri üçün kredit riskinin qiymətləndirilməsi mürəkkəb prosesdir və bir sıra modellərin tətbiqini tələb edir, çünki risk bazar şərtlərindən, ehtimal olunan pul vəsaitlərinin axınından və vaxtdan asılı olaraq dəyişir. Aktivlər portfelinin kredit riskinin qiymətləndirilməsi, baş verən səhvlərin ehtimalının, əlaqəli zərər nisbətlərinin və kreditlərin çevrilməsi amillərinin daha çox qiymətləndirilməsini nəzərdə tutur.

Cəmiyyətin rəhbərliyi fərdi borcalanlar üçün kredit limitlərinin təsdiq edilməsindən məsuldur. Kredit riskinin miqyasından asılı olaraq fərdi müştərilərlə əməliyyatlar üzrə qərarlar Cəmiyyət Rəhbərliyi tərəfindən təsdiq edilir.

Müvafiq müştərilərlə əlaqələr üzrə menecerlər tərəfindən hazırlanan lizinq ərizələri, kredit limitinin təsdiqlənməsi üçün müvafiq şöbəyə verilir. Kredit riskinə məruz qalma, qismən, girovun alınması, həmçinin korporativ və şəxsi zəmanətlər vasitəsilə idarə olunur. Kredit riskinə məruz qalmanın monitorinqi üçün məsul şəxslər tərəfindən müştərilərin biznes və maliyyə göstəricilərinə əsaslanan strukturlaşdırılmış təhlil əsasında müntəzəm hesabatlar hazırlanır. Aşağı kredit ödəmə qabiliyyətliliyi olan müştərilərlə hər hansı bir mühüm əlaqə Cəmiyyətin İdarə Heyətinə bildirilir və bu İdarə Heyəti tərəfindən nəzərdən keçirilir.

**Coğrafi risk konsentrasiyası**

Rəhbərlik qanunvericiliyin və tənzimləyici sahənin risklərinə nəzarəti həyata keçirir və onun fəaliyyətinin Cəmiyyətin fəaliyyətinə təsirini qiymətləndirir. Bu yanaşma Cəmiyyətə Azərbaycan Respublikasında investisiya mühitinin dəyişkənliklərindən mümkün zərərləri minimuma endirməyə imkan verir.

Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə aktiv və öhdəliklər üzrə coğrafi konsentrasiyası aşağıda verilmişdir:

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,070 | - | 4,070 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 7,360,975 | - | 7,360,975 |
| Maliyyə icarələri üzrə xalis investisiya | 18,285,945 | - | 18,285,945 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **25,650,990** | **-** | **25,650,990** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Borc alınmış vəsaitlər | 22,327,474 | 27,277 | 22,354,751 |
| Buraxılmış borc qiymətli kağızları | 2,245,726 | - | 2,245,726 |
| İcarə öhdəliyi | 98,134 | - | 98,134 |
| Digər öhdəliklər | 21,095 | - | 21,095 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **24,692,429** | **27,277** | **24,719,706** |
| **XALİS MÖVQE** | **958,561** | **(27,277)** | **931,284** |

Cəmiyyətin 31 dekabr 2020-ci il tarixinə aktiv və öhdəliklər üzrə coğrafi konsentrasiyası aşağıda verilmişdir:

| | Azərbaycan Respublikası | İƏİT ölkələri | 31 dekabr 2020-ci il Cəmi |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,889 | - | 30,889 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 4,251,050 | - | 4,251,050 |
| Maliyyə icarələri üzrə xalis investisiya | 11,920,022 | - | 11,920,022 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **16,201,961** | **-** | **16,201,961** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Borc alınmış vəsaitlər | 14,289,216 | 28,382 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 1,400,583 | - | 1,400,583 |
| Digər öhdəliklər | 25,108 | - | 25,108 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **15,714,907** | **28,382** | **15,743,289** |
| **XALİS MÖVQE** | **487,054** | **(28,382)** | **458,672** |

**Likvidlik riski**

Likvidlik riski, faktiki olaraq ödəmə tarixi çatdığı zaman, maliyyə alətləri ilə bağlı maliyyə öhdəlikləri yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcudluğunu nəzərdə tutur. Likvidlik riskini idarə etmək üçün, Cəmiyyət mövcud pul vəsaitlərinin gündəlik monitorinqini və gələcək ehtimal olunan pul vəsaitlərinin axınını müştərilərin və digər maliyyə əməliyyatlarının aktivlərinin/öhdəlikləri idarəetmə prosesinin bir hissəsi olan aylıq təhlili həyata keçirir.

Növbəti cədvəldə likvidlik və faiz dərəsəci riski üzrə təhlilin nəticəsi göstərilmişdir. Cədvəllər təfsilatları ilə təqdim edilmişdir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Maliyyə icarələri üzrə xalis investisiya | 1,454,156 | 2,127,731 | 7,760,714 | 6,943,344 | 18,285,945 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 510,150 | - | - | - | 510,150 |
| **Cəmi faiz gətirən maliyyə aktivləri** | **1,964,306** | **2,127,731** | **7,760,714** | **6,943,344** | **18,796,095** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,070 | - | - | - | 4,070 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | - | 2,600,825 | 4,250,000 | - | 6,850,825 |
| **Cəmi maliyyə aktivləri** | **1,968,376** | **4,728,556** | **12,010,714** | **6,943,344** | **25,650,990** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc alınmış vəsaitlər | 1,528,421 | 6,988,077 | 10,951,286 | 2,886,967 | 22,354,751 |
| Buraxılmış borc qiymətli kağızları | 3,660 | - | - | 2,242,066 | 2,245,726 |
| İcarə öhdəliyi | 5,421 | 10,960 | 60,650 | 21,103 | 98,134 |
| **Cəmi faiz gətirən maliyyə öhdəlikləri** | **1,537,502** | **6,999,037** | **11,011,936** | **5,150,136** | **24,698,611** |
| Digər öhdəliklər | 21,095 | - | - | - | 21,095 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,558,597** | **6,999,037** | **11,011,936** | **5,150,136** | **24,719,706** |
| Likvidlik boşluğu | 409,779 | (2,270,481) | 998,778 | 1,793,208 | 931,284 |
| **Məcmu likvidlik boşluğu** | **409,779** | **(1,860,702)** | **(861,924)** | **931,284** | |

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 31 dekabr 2020-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | |
| Maliyyə icarələri üzrə xalis investisiya | 417,352 | 1,296,146 | 5,012,524 | 5,194,000 | 11,920,022 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 1,050 | 4,250,000 | - | - | 4,251,050 |
| **Cəmi faiz gətirən maliyyə aktivləri** | **418,402** | **5,546,146** | **5,012,524** | **5,194,000** | **16,171,072** |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,889 | - | - | - | 30,889 |
| **Cəmi maliyyə aktivləri** | **449,291** | **5,546,146** | **5,012,524** | **5,194,000** | **16,201,961** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc alınmış vəsaitlər | 634,025 | 399,790 | 11,602,845 | 1,680,938 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 583 | - | - | 1,400,000 | 1,400,583 |
| **Cəmi faiz gətirən maliyyə öhdəlikləri** | **634,608** | **399,790** | **11,602,845** | **3,080,938** | **15,718,181** |
| Digər öhdəliklər | 25,108 | - | - | - | 25,108 |
| **Cəmi maliyyə öhdəlikləri** | **659,716** | **399,790** | **11,602,845** | **3,080,938** | **15,743,289** |
| Likvidlik boşluğu | (210,425) | 5,146,356 | (6,590,321) | 2,113,062 | 458,672 |
| **Məcmu likvidlik boşluğu** | **(210,425)** | **4,935,931** | **(1,654,390)** | **458,672** | |

Likvidlik və faiz dərəcəsi risklərinin növbəti təhlili 7 saylı MHBS-yə uyğun olaraq aşağıdakı cədvəllərdə verilmişdir. Bu cədvəllərdə açıqlanan məbləğlər maliyyə vəziyyəti haqqında hesabatda qeydə alınmış məbləğlər ilə uzlaşmır, çünki aşağıdakı təqdimatda maliyyə vəziyyəti haqqında hesabatda effektiv faiz dərəcəsi metodu ilə tanınmamış qalan müqavilə ödənişlərini (faiz ödənişləri də daxil olmaqla) göstərən maliyyə öhdəlikləri üçün ödəmə təhlili mövcuddur.

31 dekabr 2021-ci il tarixinə maliyyə öhdəliklərinin ödəmə təhlili belədir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 31 dekabr 2021-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc alınmış vəsaitlər | 1,683,780 | 7,289,861 | 11,881,669 | 3,687,863 | 24,543,173 |
| Buraxılmış borc qiymətli kağızları | 20,900 | 41,800 | 188,100 | 2,402,299 | 2,653,099 |
| İcarə öhdəliyi | 6,084 | 12,169 | 63,765 | 21,255 | 103,273 |
| **Cəmi faiz gətirən maliyyə öhdəlikləri** | **1,710,764** | **7,343,830** | **12,133,534** | **6,111,417** | **27,299,545** |
| Digər öhdəliklər | 21,095 | - | - | - | 21,095 |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,731,859** | **7,343,830** | **12,133,534** | **6,111,417** | **27,320,640** |

31 dekabr 2020-ci il tarixinə maliyyə öhdəliklərinin ödəmə təhlili belədir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 31 dekabr 2020-ci il Cəmi |
|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | |
| Borc alınmış vəsaitlər | 746,061 | 620,276 | 12,468,599 | 2,050,728 | 15,885,664 |
| Buraxılmış borc qiymətli kağızları | 18,083 | 35,000 | 315,000 | 1,593,667 | 1,961,750 |
| **Cəmi faiz gətirən maliyyə öhdəlikləri** | **764,144** | **655,276** | **12,783,599** | **3,644,395** | **17,847,414** |
| Digər öhdəliklər | 25,108 | - | - | - | 25,108 |
| **Cəmi maliyyə öhdəlikləri** | **789,252** | **655,276** | **12,783,599** | **3,644,395** | **17,872,522** |

## Bazar riski

Bazar riski, Cəmiyyətin məruz qaldığı faiz dərəcəsi riskini, valyuta riskini və digər qiymətlə bağlı riskləri əhatə edir. Cəmiyyət, riski maliyyə bazarlarında və bütövlükdə iqtisadiyyatda mövcud tərəddüdlər və dəyişikliklərin təhlili və nəzarəti yolu ilə ölçür.

## Faiz dərəcəsi riski

Aşağıdakı cədvəldə "risk parametrində əsaslandırılmış mümkün dəyişikliklər" prinsipi əsasında müəyyən edilmiş faiz riskinin həssaslıq təhlili göstərilir. Bu dəyişikliklərin səviyyəsi rəhbərlik tərəfindən müəyyənləşdirilir və idarə heyətinə təqdim olunan risk hesabatlarında əks olunur.

| | 31 dekabr 2021-ci il tarixinə | |
|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Maliyyə aktivləri:** | | |
| Maliyyə icarələrində xalis investisiya | 182,859 | (182,859) |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 5,102 | (5,102) |
| **Maliyyə öhdəlikləri:** | | |
| Borc alınmış vəsaitlər | (223,548) | 223,548 |
| Buraxılmış borc qiymətli kağızları | (22,457) | 22,457 |
| İcarə öhdəliyi | (981) | 981 |
| **Mənfəət vergisindən əvvəlki mənfəət üzrə xalis təsir** | **(59,025)** | **59,025** |

| | 31 dekabr 2020-ci il tarixinə | |
|---|---|---|
| | Faiz dərəcəsi +1% | Faiz dərəcəsi -1% |
| **Maliyyə aktivləri:** | | |
| Maliyyə icarələrində xalis investisiya | 119,200 | (119,200) |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 42,511 | (42,511) |
| **Maliyyə öhdəlikləri:** | | |
| Borc alınmış vəsaitlər | 143,176 | (143,176) |
| Buraxılmış borc qiymətli kağızları | 14,006 | (14,006) |
| **Mənfəət vergisindən əvvəlki zərər üzrə xalis mənfəət** | **318,893** | **(318,893)** |

### Valyuta riski

Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrindəki dəyişikliklərin baş verməsi səbəbindən maliyyə alətlərinin dəyərində dəyişikliyin yaranması ilə bağlı riskdir. Cəmiyyət xarici valyuta məzənnələrindəki dəyişikliklərin onun maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə əlaqədar xarici valyuta riskinə məruz qalır.

Cəmiyyətin xarici valyuta dərəcəsi riskinə məruz qalmasına dair məlumat aşağıdakı cədvəldə təqdim olunur:

| | AZN | ABŞ dolları | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 4,064 | 4,070 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | - | 7,360,975 | 7,360,975 |
| Maliyyə icarələrində xalis investisiya | 17,599,179 | 686,766 | 18,285,945 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **17,599,185** | **8,051,805** | **25,650,990** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Borc alınmış vəsaitlər | 13,786,874 | 8,567,877 | 22,354,751 |
| Buraxılmış borc qiymətli kağızları | 1,401,167 | 844,559 | 2,245,726 |
| İcarə öhdəliyi | 98,134 | - | 98,134 |
| Digər öhdəliklər | 21,095 | - | 21,095 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **15,307,270** | **9,412,436** | **24,719,706** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **2,291,915** | **(1,360,631)** | **931,284** |

| | AZN | ABŞ dolları | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,396 | 493 | 30,889 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | - | 4,251,050 | 4,251,050 |
| Maliyyə icarələrində xalis investisiya | 11,920,022 | - | 11,920,022 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **11,950,418** | **4,251,543** | **16,201,961** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | |
| Borc alınmış vəsaitlər | 10,037,194 | 4,280,404 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 1,400,583 | - | 1,400,583 |
| Digər öhdəliklər | 25,108 | - | 25,108 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **11,462,885** | **4,280,404** | **15,743,289** |
| **AÇIQ VALYUTA MÖVQEYİ** | **487,533** | **(28,861)** | **458,672** |

Cəmiyyətdən yuxarıdakı cədvələ əsasən tənzimləyici valyuta mövqeyinə uyğunluq məqsədləri üçün hesabat vermək tələb olunmur, əksinə prudensial rəqəmlərə əsaslanan valyuta mövqeyi tənzimləyiciyə təqdim olunur.

Azərbaycan manatının qeyd edilən valyutalara qarşı 31 dekabr 2021 və 2020-ci il tarixlərinə zəifləməsi nəticəsində kapital və mənfəət və ya zərər aşağıda göstərilən məbləğlər qədər azala bilərdi. Təhlil vergilər çıxılmaqla təqdim olunur və Cəmiyyət hesabat dövrünün sonunda mümkün olduqlarını ehtimal etdiyi xarici valyuta məzənnələrinin dəyişikliklərinə əsaslanır. Təhlildə bütün digər parametrlərin, xüsusilə də, faiz dərəcələrinin, sabit qalması fərz olunur.

| | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|
| ABŞ dollarının AZN-ə nisbətdə 10% möhkəmlənməsi | (136,063) | (2,886) |

AZN-in qeyd edilən valyutalara qarşı 31 dekabr 2021 və 2020-ci il tarixlərinə möhkəmlənməsi, bütün digər parametrlərin sabit qalması şərti ilə, həmin valyutalara eyni həcmli, lakin əks istiqamətli təsir edəcəkdir.

## 21. TƏƏHHÜDLƏR VƏ ŞƏRTİ ÖHDƏLİKLƏR

***Məhkəmə prosesləri*** – Cəmiyyət vaxtaşırı olaraq və adi fəaliyyəti müddətində müştərilər və müqavilə tərəflərinin irəli sürdüyü iddialarla üzləşir. Rəhbərlik hesab edir ki, heç bir hesablanmamış əhəmiyyətli itki yaranmayacaq və bu səbəbdən də hazırkı maliyyə hesabatlarında ehtiyatlar nəzərdə tutulmamışdır.

***Vergi məsələləri*** – Azərbaycan Respublikasının ticarət, o cümlədən vergi qanunvericiliyi bir neçə şəkildə təfsir oluna bilər. Bundan əlavə, biznes fəaliyyəti ilə əlaqədar olaraq vergi orqanlarının öz mülahizələrinə görə sərbəst qərar vermələri riski də mövcuddur. Biznes fəaliyyəti ilə əlaqədar Cəmiyyət rəhbərliyinin mülahizələrinə əsaslanan müəyyən mövqe vergi orqanları tərəfindən birmənalı qarşılanmadıqda, Cəmiyyətə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Belə qeyri-müəyyənlik halları maliyyə alətlərinin qiymətləndirilməsi, ehtimal olunan dəyərsizləşmə zərəri üçün ehtiyatların qiymətləndirilməsi və sövdələşmələrin bazar qiymətinin müəyyənləşdirilməsi ilə bağlı ola bilər. Bundan başqa, belə qeyri-müəyyənlik vergiyə cəlb olunan mənfəətin natamam hesablanması nəticəsində ehtiyat üzrə müvəqqəti fərqin qiymətləndirilməsi, habelə müştərilərə verilmiş kreditlər və debitor borcları ilə bağlı dəyərsizləşmə zərəri üçün ehtiyatların geri qaytarılması ilə də bağlı ola bilər. Cəmiyyətin rəhbərliyi bütün vergi öhdəliklərinin hesablandığını hesab edir, buna görə də maliyyə hesabatlarında heç bir ehtiyat nəzərdə tutulmamışdır.

Ümumiyyətlə, vergi orqanlarının yoxladıqları ildən əvvəlki üç təqvim ili üzrə vergi yoxlaması aparmaq səlahiyyəti vardır. Lakin tamamlanmış vergi yoxlamaları, aşağı səviyyəli vergi orqanlarının əldə etdiyi vergi auditi nəticələrini yoxlamaq məqsədilə yuxarı səviyyəli vergi orqanları tərəfindən həyata keçirilən sonrakı əlavə vergi yoxlamalarının olması ehtimalını istisna etmir. Cinayət işinin araşdırılması zamanı iddia müddəti məhkəmənin qərarına əsasən yeddi ilədək uzadıla bilər.

## 22. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

"Əlaqəli tərəflərlə bağlı qeydlər" adlı 24 saylı MUBS-un tələblərinə əsasən əlaqəli tərəflər və ya əlaqəli tərəflərlə əməliyyatlar aşağıdakılardan ibarətdir:

(a) Cəmiyyətin birbaşa, dolayı yolla və ya hər hansı bir üçüncü tərəf vasitəsilə nəzarət etdiyi, nəzarətində olduğu və ya bərabər nəzarət altında olduğu tərəflər (buraya ana şirkətlər, törəmə müəssisələr, eyni səviyyədə olan törəmə müəssisələr aiddir); Cəmiyyətin fəaliyyətində marağı və bu fəaliyyətə əhəmiyyətli dərəcədə təsir göstərmək imkanı olan şəxslər; və Cəmiyyətin fəaliyyətinə ortaq nəzarət həyata keçirən şəxslər;
(b) Assosiasiya edilmiş müəssisələr – Cəmiyyət tərəfindən fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərilə biləcək, lakin törəmə və ya birgə müəssisə olmayan tərəflər;
(c) Cəmiyyətin və ya ana şirkətin idarə heyətinin üzvləri;
(d) (a) və ya (c) bəndlərində göstərilən şəxslərin yaxın ailə üzvləri;
(e) müəssisələr tərəfindən nəzarət olunan, birgə nəzarət olunan və ya əhəmiyyətli dərəcədə təsirə məruz qalan tərəflər;
(f) (c) və ya (d) bəndlərində göstərilən şəxslər tərəfindən birbaşa və ya dolayı yolla səsvermə hüquqlarının əhəmiyyətli hissəsini əlində cəmləşdirən nəzarətdə olan tərəflər, müəssisələr və birgə müəssisələr; və ya
(g) İş müddəti bitdikdən sonra Cəmiyyətin keçmiş işçiləri və ya Cəmiyyətin əlaqəli olduğu şəxs tərəfindən alınacaq mükafatlar.

Mümkün əlaqəli tərəflərlə əlaqələrin hər birini nəzərdən keçirərkən, əlaqələrin hüquqi formasına deyil, mahiyyətinə diqqət yetirilir.

Cəmiyyət, 31 dekabr 2021 və 2020-ci il tarixlərinə əlaqəli tərəflərlə aşağıdakı əməliyyatları həyata keçirmişdir:

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** |
| Törəmə müəssisəyə investisiya | 150 | 150 | - | - |
| Borc alınmış vəsaitlər | 8,540,599 | 22,354,751 | 5,794,408 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 2,245,726 | 2,245,726 | 1,400,538 | 1,400,538 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 4,070 | 494 | 30,889 |

31 dekabr 2021 və 2020-ci il tarixlərində başa çatmış illər üzrə əlaqəli tərəflərlə əməliyyatlar üzrə mənfəət və ya zərərə daxil edilmiş məbləğlər aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** |
| Dividend gəliri | 135,000 | 135,000 | - | - |
| Borc alınmış vəsaitlər üzrə faiz xərci | 449,939 | 1,904,816 | 211,499 | 1,527,884 |
| Buraxılmış borc qiymətli kağızlar üzrə faiz xərci | 231,109 | 231,109 | 77,000 | 77,000 |

Cəmiyyətin rəhbərlik xərclərinə aid edilmiş cəmi ödəniş aşağıdakı kimidir:

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** |
| Əsas rəhbər heyət | 80,347 | 258,997 | 50,957 | 209,509 |

Cəmiyyət, 31 dekabr 2021 və 2020-ci il tarixlərinə əlaqəli tərəflərlə aşağıdakı dövriyyədə olan qalıqları həyata keçirmişdir:

| | 31 dekabr 2021-ci il | | 31 dekabr 2020-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** | **Əlaqəli tərəflərlə əməliyyatlar** | **Maliyyə hesabatlarının hər bəndi üzrə ümumi kateqoriya** |
| Digər öhdəliklər | 4,922 | 38,362 | - | 25,108 |

Əsas rəhbər heyətə tam müddətli rəhbər vəzifələrində göstərdikləri xidmətlərə görə ödənilmiş kompensasiya, müqaviləli əmək haqqı, Cəmiyyətin maliyyə göstəricilərindən asılı olaraq bonus və digər kompensasiyalardan ibarətdir.

## 23. MALİYYƏ ALƏTLƏRİNİN ƏDALƏTLİ DƏYƏRİ

MHBS-yə əsasən ədalətli dəyər, qiymətləndirmə tarixində bazar iştirakçıları arasında adi əməliyyat çərçivəsində aktivin satışından alınan və ya öhdəliyin ötürülməsi üçün ödənilən qiymət kimi müəyyən olunur.

### Ədalətli dəyərin iyerarxiyası

Cəmiyyət ədalətli dəyərləri ölçərkən ilkin göstəricilərin əhəmiyyətliliyini əks etdirən aşağıdakı ədalətli dəyər iyerarxiyasından istifadə edir:

- 1-ci Səviyyə: fəal bazarda analoji alət üçün kotirovka olunan bazar qiymətləri (nizamlanmamış);
- 2-ci Səviyyə: birbaşa (yəni qiymətlər kimi), ya da bilavasitə (yəni qiymətlərdən törəyən) müşahidə oluna bilən, 1-ci səviyyəyə daxil edilmiş kotirovka olunan qiymətdən başqa digər ilkin göstəricilər. Bu kateqoriyaya aşağıdakı amillərdən istifadə etməklə qiymətləndirilən alətlər daxildir: analoji alətlər üçün fəal bazarda tətbiq edilən kotirovka olunan bazar qiymətləri; analoji alətlər üzrə kifayət qədər fəal hesab olunmayan bazarlarda tətbiq edilən kotirovka olunan qiymətlər; və ya bütün əhəmiyyətli ilkin göstəricilərin birbaşa, yaxud dolayısı ilə bazar məlumatlarından müşahidə oluna bildiyi sair qiymətləndirmə üsulları;
- **3-cü Səviyyə**: müşahidə oluna bilməyən ilkin göstəricilər. Bu kateqoriyaya aid edilən alətlərin qiymətləndirmə metoduna müşahidə edilə bilən məlumata əsaslanmayan ilkin göstəricilər daxildir və müşahidə edilə bilməyən ilkin göstəricilər həmin alətin qiymətləndirilməsində əhəmiyyətli təsirə malikdir. Bu kateqoriyaya oxşar alətlər üçün kotirovka olunan qiymətlər əsasında qiymətləndirilən alətlər daxildir və bu zaman alətlər arasında fərqi əks etdirmək üçün mühüm müşahidə olunmayan tənzimləmələr və ya mülahizələr tələb olunur.

Aşağıdakı cədvəl ədalətli dəyərdə ölçülən maliyyə alətlərini hər bir ədalətli dəyər ölçülməsinin təsnifləşdirildiyi ədalətli dəyər iyerarxiyasındakı səviyyə əsasında təhlil edir:

| | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən məlumatlar (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə olunmayan məlumatlar (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2021-ci il | 4,070 | - | - | 4,070 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 31 dekabr 2021-ci il | 7,360,975 | - | - | 7,360,975 |
| Maliyyə icarələri üzrə xalis investisiya | 31 dekabr 2021-ci il | - | - | 17,070,015 | 17,070,015 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Borc alınmış vəsaitlər | 31 dekabr 2021-ci il | - | - | 22,354,751 | 22,354,751 |
| Buraxılmış borc qiymətli kağızları | 31 dekabr 2021-ci il | - | - | 2,245,726 | 2,245,726 |
| İcarə öhdəliyi | 31 dekabr 2021-ci il | - | - | 98,134 | 98,134 |
| Digər öhdəliklər | 31 dekabr 2021-ci il | - | - | 21,095 | 21,095 |

| | | Aşağıdakılardan istifadə etməklə ədalətli dəyərin ölçülməsi | | | |
|---|---|---|---|---|---|
| | **Qiymətləndirmə tarixi** | **Fəal bazarlardakı kotirovka qiymətləri (1-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə edilən məlumatlar (2-ci Səviyyə)** | **Əhəmiyyətli müşahidə olunmayan məlumatlar (3-cü Səviyyə)** | **Cəmi** |
| **Ədalətli dəyərləri açıqlanan aktivlər** | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 31 dekabr 2020-ci il | 30,889 | - | - | 30,889 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 31 dekabr 2020-ci il | 4,251,050 | - | - | 4,251,050 |
| Maliyyə icarələri üzrə xalis investisiya | 31 dekabr 2020-ci il | - | - | 10,786,994 | 10,786,994 |
| **Ədalətli dəyərləri açıqlanan öhdəliklər** | | | | | |
| Borc alınmış vəsaitlər | 31 dekabr 2020-ci il | - | - | 14,317,598 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 31 dekabr 2020-ci il | - | - | 1,400,583 | 1,400,583 |
| İcarə öhdəliyi | 31 dekabr 2020-ci il | - | - | - | - |
| Digər öhdəliklər | 31 dekabr 2020-ci il | - | - | 25,108 | 25,108 |

**Ədalətli dəyərdə qiymətləndirilməyən maliyyə aktivlərinin və öhdəliklərinin ədalətli dəyəri**

Maliyyə vəziyyəti hesabatında Cəmiyyətin ədalətli dəyərdə qiymətləndirilməyən maliyyə alətlərinin ədalətli dəyəri və qalıq məbləğlərinin növlər ilə müqayisəsi aşağıda qeyd olunmuşdur. Cədvəldə qeyri-maliyyə aktivləri və qeyri-maliyyə öhdəliklərinin ədalətli dəyəri qeyd olunmamışdır.

| | Qalıq dəyəri 2021-ci il | Ədalətli dəyər 2021-ci il |
|---|---|---|
| **Maliyyə aktivləri** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,070 | 4,070 |
| Kredit təşkilatlarından alınacaq vəsaitlər | 7,360,975 | 7,360,975 |
| Maliyyə icarələri üzrə xalis investisiya | 18,285,945 | 17,070,015 |
| **Maliyyə öhdəlikləri** | | |
| Borc alınmış vəsaitlər | 22,354,751 | 22,354,751 |
| Buraxılmış borc qiymətli kağızları | 2,245,726 | 2,245,726 |
| İcarə öhdəliyi | 98,134 | 98,134 |
| Digər öhdəliklər | 21,095 | 21,095 |

| | Qalıq dəyəri 2020-ci il | Ədalətli dəyər 2020-ci il |
|---|---|---|
| **Maliyyə aktivləri** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 30,889 | 30,889 |
| Maliyyə icarələri üzrə xalis investisiya | 11,920,022 | 10,786,994 |
| Bankda yerləşdirilmiş depozit | 4,251,050 | 4,251,050 |
| **Maliyyə öhdəlikləri** | | |
| Borc alınmış vəsaitlər | 14,317,598 | 14,317,598 |
| Buraxılmış borc qiymətli kağızları | 1,400,583 | 1,400,583 |
| Digər öhdəliklər | 25,108 | 25,108 |

**Ədalətli dəyəri qalıq dəyərinə yaxın olan aktiv və öhdəliklər**

Likvid və ya qısa müddətli (üç aydan az) olan maliyyə aktivləri və maliyyə öhdəlikləri üçün balans dəyərlərinin ədalətli dəyərinə yaxın olduğu qəbul edilir. Bu fərziyyə müddəti və dəyişkən dərəcəli maliyyə alətləri olmadan tələb olunan əmanətlərə də tətbiq olunur.

**Sabit və dəyişkən dərəcəli maliyyə alətləri**

Kotirovkası olan borc alətləri üçün ədalətli dəyərlər təklif olunan bazar qiymətləri əsasında müəyyən edilir. Kotirovkası olmayan borc alətlərinin ədalətli dəyəri oxşar pul şərtləri, kredit riski və qalan ödəmə müddəti ilə mövcud borc dərəcələrini istifadə edərək gələcək pul vəsaitlərinin hərəkətini diskontlaşdırmaqla qiymətləndirilir.

## 24. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

10 yanvar 2022-ci il tarixində Cəmiyyət səhmdarlarına ümumi məbləği 700,000 AZN məbləğində olan dividendlər elan etmiş və ödəmişdir.

9 mart 2022-ci il tarixində Cəmiyyət törəmə müəssisəsi olan "Caspian Auto Import" MMC-yə 200,000 AZN məbləğində əlavə investisiya qoymuşdur.

Hesabat dövründən sonra "Hermes Finans" QSC, müvafiq olaraq, 715,624 AZN məbləğində lizinq portfeli almış, yerli şirkətlərə isə 4,325,665 AZN məbləğində lizinq portfelini satmışdır.